DOI: https://doi.org/10.36719/2663-4619/125/64-84

**Kərim Novruzov**
Ağdam rayon 95 saylı tam orta məktəb
https://orcid.org/0009-0001-7805-6552
karim.novruz@mail.ru

# Səfəvi-İngiltərə əlaqələrinin formalaşması: Moskva şirkətinin rolu

## Xülasə

Məqalə Azərbaycanın qədim və zəngin dövlətçilik ənənələrinə malik olduğunu və bu tarixi təcrübənin müasir müstəqil dövlətin möhkəmlənməsində mühüm rol oynadığını göstərir. Orta əsrlərdə Azərbaycan ərazisində mövcud olmuş Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri diplomatiya tariximiz baxımından xüsusi əhəmiyyət daşıyır. Məqalədə 1561-ci ildən etibarən Səfəvilər dövləti ilə İngiltərə arasında qurulan ilk siyasi və ticarət münasibətləri araşdırılır. Bu əlaqələr əsasən İngiltərənin Moskva şirkətinin fəaliyyəti vasitəsilə həyata keçirilmişdir. XVI əsrin ikinci yarısında Moskva şirkətinin Səfəvilər dövlətinə göndərdiyi altı ekspedisiya ardıcıllıqla təhlil edilir. Hər bir səfərin məqsədi və nəticələri məqalədə konkret faktlarla izah olunur. İngiltərədə XV–XVI əsrlərdə yunçuluq və mahud sənayesinin sürətli inkişafı xarici bazarlara marağı artırmışdır. Yun ixracının yerini tədricən hazır mahud məhsullarının ixracı tutmuşdur. Bu iqtisadi dəyişikliklər İngiltərənin yeni ticarət yolları axtarmasını zəruri etmişdir. Şimal-Şərq dəniz yolu ideyası məhz bu ehtiyacdan yaranmışdır. Moskva şirkəti səhmdar prinsipi əsasında fəaliyyət göstərən ilk iri ticarət təşkilatlarından biri olmuşdur. Şirkət İngiltərənin ticarət və diplomatik maraqlarının Şərqə doğru genişlənməsində mühüm rol oynamışdır. Məqalə İngiltərə–Səfəvi münasibətlərinin beynəlxalq münasibətlər sistemində tutduğu yeri və Azərbaycanın orta əsrlər tarixinin Avropa mənbələrində əksini aydın şəkildə ortaya qoyur.

***Açar sözlər:*** *Azərbaycan, Səfəvi dövləti, İngiltərə, Moskva şirkəti, orta əsrlər diplomatiyası, beynəlxalq ticarət, yun sənayesi, Şimal-Şərq dəniz yolu, İngiltərə–Səfəvi münasibətləri*

**Karim Novruzov**
Agdam District Secondary School No. 95
https://orcid.org/0009-0001-7805-6552
karim.novruz@mail.ru

# The Formation of Safavid-English Relations: The Role of the Moscow Company

## Abstract

The article emphasizes that Azerbaijan has ancient and rich statehood traditions, which have played an important role in strengthening the modern independent state. The relations of the Aq Qoyunlu and Safavid states, which existed in the territory of Azerbaijan in the Middle Ages, with European countries are of particular significance for the history of diplomacy. The article examines the first political and commercial relations established between the Safavid state and England beginning in 1561. These relations were mainly carried out through the activities of the English Muscovy Company. The six expeditions sent by the Muscovy Company to the Safavid state in the second half of the sixteenth century are analyzed in chronological order. The aims and outcomes of each expedition are explained on the basis of concrete historical evidence. In England, the rapid development of sheep breeding and the woolen cloth industry in the fifteenth and sixteenth centuries increased interest in foreign markets.


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Over time, the export of raw wool was gradually replaced by the export of finished woolen cloth. These economic changes made it necessary for England to search for new trade routes. The idea of the Northeast Sea Route emerged as a result of this need. The Muscovy Company became one of the first large trading organizations operating on the basis of joint-stock principles. The company played an important role in the expansion of England's commercial and diplomatic interests toward the East. Overall, the article clearly demonstrates the place of Anglo-Safavid relations within the international relations system and highlights how Azerbaijan's medieval history was reflected in European sources.
***Keywords:*** *Azerbaijan, Safavid State, England, Muscovy Company, medieval diplomacy, international trade, wool industry, Northeast Sea Route, Anglo-Safavid relations*

## Giriş

Bu gün dünya birliyinin bərabərhüquqlu üzvü olan Azərbaycan Respublikası taleyinin həlledici dövrünü yaşamış, beynəlxalq siyasi və iqtisadi aləmdə özünəməxsus yer qazanmışdır. Azərbaycan xalqı qədim və zəngin dövlətçilik tarixinə malikdir. Biz böyük qürurla qeyd edirik ki, Azərbaycan müasir dünya sivilizasiyasının ən qədim mərkəzlərindən biridir və Azərbaycan xalqı öz torpaqlarında zəngin və çoxşaxəli mədəniyyətlə bərabər, qədim və şərəfli dövlətçilik ənənələri də yaratmışdır.

Bu qədim dövlətçilik ənənələri və tarixi təcrübə müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində, uğurlu xarici siyasət xəttinin həyata keçirilməsində xüsusi rola malikdir. Ona görə də diplomatiya tariximizin, xüsusilə bu gün dünyanın qüdrətli və respublikamızla strateji partnyorluq münasibətində olan dövlətləri ilə əlaqələrimizin tarixini araşdırmaq, lazımi nəticələr çıxararaq dünyaya yaymaq olduqca zəruridir. Bu baxımdan yanaşdıqda, orta əsrlər Azərbaycan ərazisində olan Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa dövlətləri ilə əlaqələri xüsusi əhəmiyyətə malikdir. Avropa dövlətləri ilə əlaqələrimizin həm ümumilikdə, həm də ayrı-ayrı araşdırılmasının digər əhəmiyyəti də ondan ibarətdir ki, bununla biz Azərbaycanın nə qədər qədim və zəngin dövlətçilik ənənələrinə malik olduğunu və xalqlarımız arasında tarixi dostluq əlaqələrinin mövcudluğunu təbliğ etmək imkanı qazanırıq.

**Tədqiqat**

Məqalədə orta əsrlərdə ilk dəfə olaraq 1561-ci ildə Azərbaycan Səfəvilər dövləti ilə dünyanın ən qüdrətli dövlətlərindən biri olan İngiltərə arasında yaranmış əlaqələrdən bəhs edilir. Burada İngiltərənin Moskva şirkətinin XVI əsrin ikinci yarısında Səfəvilər dövlətinə göndərdiyi altı ekspedisiya ardıcıllıqla araşdırılır və hər səfərin nəticələri haqqında konkret məlumat verilir.

İngiltərə ilə Səfəvilər dövlətinin dərindən araşdırılmasının aktuallığı həm də ona görə mühümdür ki, bu illərdə ölkəmizin tarixi İngiltərə tarixi ilə bağlıdır. Belə ki, bu əlaqələr orta əsrlərdə beynəlxalq münasibətlər sisteminin bir hissəsi olmuş və dünyada baş verən proseslərə uyğun inkişaf etmişdir. Aktuallıq həmçinin ondan ibarətdir ki, əlaqələrin araşdırılması nəticəsində Azərbaycanın orta əsrlər tarixi, ənənələri, şəhərləri və s. haqqında ingilis səyyahlarının fikirləri məqalədə mövcud imkanlar daxilində araşdırılır.

İngiltərədə XV–XVI əsrlərdə “çəpərləmələr” ilə əlaqədar olaraq qoyunçuluq təsərrüfatının daha da inkişaf etməsi mövcud istehsalın genişlənməsinə zəmin hazırladı. Mahud istehsalı İngiltərənin zənginliyinin əsasını təşkil edirdi. Təsadüfi deyildi ki, İngiltərənin simvolu kimi yunla doldurulmuş olan kisə indi də parlamentin Lordlar Palatasında saxlanılır və lord-kanslerin oturacağını təşkil edir. Yun ixracı əvvəldən İngiltərə ixracının əsasını təşkil edirdi. Lakin XVI əsrin sonlarında yun ixracı yun parçaların ixracı ilə əvəz olunmağa başladı. İngiltərə yun sənayesinin başlıca xüsusiyyətləri ondan ibarətdir ki, bu sənaye kapitalist istehsalı əsasında, həm də böyük sürətlə inkişaf edirdi. Yeni sənaye sahələri olmaq etibarilə mahudçuluq sənayesi əsasən istehsalı sıxışdıran və rəqabəti məhdudlaşdıran sex qaydalarının olmadığı kənd yerlərində yaranırdı. Sex məhdudiyyətlərinin olmasının nəticəsində mahudçuluqla əmlak bərabərsizliyi və kapitalın ayrı-ayrı şəxslərin əlində toplanması prosesi sürətlə gedirdi. Eyni zamanda həm ölkə daxilində, həm də xaricində İngiltərə mahuduna olan tələbatın artması xırda istehsaldan iri istehsala — manufaktura istehsalına keçilməsini zəruri edirdi. Bundan əlavə, aqrar çevriliş nəticəsində kənddə çoxlu işçi qüvvəsinin olması da kənd yerlərində manufakturanın meydana çıxmasına kömək edirdi.

XV əsrin sonu və XVI əsrin əvvəllərində İngiltərənin mahud sənayesində pərakəndə manufakturalar üstünlük təşkil edirdi (Akhmedov, 1966).

İngiltərə mahud sənayesinin inkişafında Niderland burjua inqilabı dövründə İspan qəsbkarlarının zülmündən qaçan və böyük kütlələrlə İngiltərəyə köçən filament toxucularının da böyük rolu olmuşdur. XVI əsrin əvvəlləri üçün İngiltərə yun ixrac edən ölkələrdən mahud ixrac edən ölkəyə çevrilmişdir. Əgər 1354-cü ildə İngiltərədə 32 000 kisə yun ixrac edilmişdirsə, XVI əsrin əvvəllərində ildə 5–6 min kisə yun ixrac edilirdi, eyni zamanda həmin dövrdə mahud ixracı sürətlə artırdı. Əgər 1354-cü ildə cəmi 500 ton mahud ixrac edilmişdirsə, XVI əsrin əvvəllərində 80 000-ə, XVI əsrin ortalarında isə 122 000-ə çatmışdır ki, bu da ixracatın 19%-i təşkil edirdi. 1564–1565-ci illərdə İngiltərə ixracatının miqdarı 1 097 037 funt-sterlinq təşkil edirdi ki, onun 92 000 funt-sterlinqini yun və dəri təşkil etdiyi halda, 896 079 funt-sterlinq mahudun payına düşürdü. Moskva şirkətinin tarixinə dair qısa icmalın verilməsində məqsəd Səfəvilər dövləti ilə İngiltərə arasında ticarət əlaqələrinin yaranması və davam etdirilməsində həlledici rol oynamış həmin təşkilatın xarakter və məqsədlərini izah etməkdən ibarətdir. XVI əsrdə İngiltərənin xarici ticarətinin inkişafında əhəmiyyətli rol oynayan Moskva şirkətinin tarixi çox səciyyəvidir. Bu şirkət XVI–XVIII əsrlərdə İngiltərənin ticarət ekspansiyasının əsas orqanı kimi çıxış edən böyük ticarət təşkilatlarından biri idi. Gersonun fikrincə, bu şirkət ilk dəfə olaraq səhmdar prinsipi üzərində qurulmaqla öz quruluşunu gələcək fəaliyyət meydanının tələblərinə uyğunlaşdırmışdır. Bu şirkəti sonrakı daha nəhəng inhisarçı təşkilatların ilk nümunəsi hesab etmək olar, bunlar özlərini XVI əsrdəki "böyük sələflərin" üsullarından daha müvəffəqiyyətlə istifadə edirdilər. İngiltərə tarixi üçün şirkətin ən başlıca xidmətlərindən biri onun gələcək dünya imperiyasının diplomatik və siyasi dünyagörüşünün genişlənməsində oynadığı böyük rolundan ibarətdir.

Böyük coğrafi kəşflər ümumdünya ticarətinin sürətlə inkişaf etməsinə səbəb oldu. Ticarətin geniş vüsət alması nəticəsində ayrı-ayrı Avropa ölkələrində ticarətlə məşğul olan kapitalist xarakterli şirkətlər meydana gəldi. İqtisadi cəhətdən Avropada ən qabaqcıl ölkələrdən biri olan İngiltərədə hələ XV–XVI əsrlərdə bir çox şirkətlər fəaliyyət göstərirdi. Belə şirkətlərdən biri İngiltərədə Flandriyaya yun ixrac etməklə məşğul olan mahud tacirləri şirkəti — Merchant Adventurers ("səyyah tacirlər") idi.

XVI əsrdə belə şirkətlərin sayı daha da artır. Luns Robertsin 1638-ci ildə Londonda nəşr olunmuş *Tacirin ticarət xəritəsi* adlı əsərində Levant, Ost-Hind, Fransa və s. şirkətlərin adları çəkilir. XVI əsrin əvvəllərində "səyyar tacirlər" şirkəti inhisarçı hüquqlara malik xüsusi şirkət kimi formalaşaraq tezliklə İngiltərənin bütün xarici ticarətini ələ aldı. Lakin bu ticarət əsasən İngiltərəyə yaxın olan Avropa ölkələri ilə aparılırdı. Dəniz ticarət yolları vasitəsilə Şərq ölkələri ilə ticarət İspaniya və Portuqaliyanın inhisarında idi. XVI əsrin ortalarında İspaniyanın hərbi dəniz qüdrəti qarşısında aciz olan İngiltərə tacirləri aramsız dəniz quldurluğu ilə məşğul olmuş və bu əməliyyatlardan olduqca böyük qazanc əldə edirdilər (Makhmudov, 1997).

XVI əsrin 30-cu illərində İngiltərə zəngin Şərq ölkələrinə Şimal-Şərq dəniz yolu vasitəsilə keçid tapmağa dəfələrlə uğursuz cəhd etdikdən sonra öz diqqətini Şimal-Şərq yoluna yönəldir. Şimal-Şərq yolu ilə Qərbi Avropadan Hindistana dəniz yolu açılması ideyası İngiltərədə XVI əsrin ortalarında meydana çıxmışdır.

1525-ci ildə London taciri Robert Zsorn bu haqda öz qeydlərini kral VIII Henrixə (1509–1547) təqdim etmişdir. *Hindistan və imperator və Portuqaliya kralı tərəfindən kəşf və tabe olmuş torpaqlar, həm də kəşf edilməli olan hörmətli London taciri Robert Zsonun kral VIII Henrix öz əlinə keçirməyə çalışdığı torpaqlar haqqında qeyd* adlı sənəddə deyilirdi: "İspaniya kralları Hindistan və Qərbdəki dənizləri, Portuqaliya kralı isə Hindistan və Şərqdəki dənizləri kəşf etmişlər... İndi yalnız dünyanın şimal hissəsi açılmamış qalır və mənə belə gəlir ki, onun kəşf edilməsi yalnız Sizin vəzifə borcunuzdur, çünki bunun üçün Sizin krallığın yerləşməsi başqalarından daha əlverişli və yaxındır. Kiçik miqdarda gəmilərlə müxtəlif yeni torpaqlar və krallıqlar kəşf oluna bilər ki, bu da, şübhəsiz, Siz əlahəzrətə əbədi şöhrət, Sizin təbəələrinizə isə saysız mənfəət gətirər".

Onun fikrincə, indiyə qədər məlum olmayan şimal-şərq yolu Şimal Buzlu okean vasitəsilə düz Şərqi Çin və Moluk adaları ölkəsinə gətirib çıxarır. Bu fikir 1553-cü ildə məşhur səyyah Sebastian

Kabot tərəfindən yenidən irəli sürülmüşdür. Həmin ideya digər Avropa ölkələrində daha əvvəl meydana çıxsa da, lakin həyata keçirilməmiş, layihə olaraq qalmışdır. Bu sahədə İngiltərənin təşəbbüsü daha maraqlı idi. Bu məqsədlə Sebastian Kabot "Məlum olmayan və hətta bu vaxta qədər dəniz yolu ilə gedilməmiş ölkə, torpaq, ada, dövlət və mülklərin kəşfi üçün tacir sahibkarlar cəmiyyəti" təşkil etmək təşəbbüsünü irəli sürmüşdür. Başda London meri Lord Barın və şerif Uilyam Qorret olmaqla və 6 000 funt-sterlinq kapitalı olan cəmiyyət təşkil etdilər. 1555-ci ildə fevralın 16-da kral Filipp və kraliça Mariya (1553–1558) xüsusi fərman ilə yeni cəmiyyətin nizamnaməsini təsdiq etdilər. Sonra bir qayda olaraq Moskva şirkəti adlanan bu cəmiyyətin müxtəlif adları olmuşdur. Belə ki, 1555-ci ildə Venesiya səfiri Cavanni Mikel Doja və senata yazdığı məktubunda "bu yeni Moskva şirkətini" "This new Muscovite navigation (company)" kimi xatırladır. 1558-ci ildə kraliça Mariya Polşa kralı Sigizmunda "Rusiya ilə ticarət edən London tacirləri şirkəti" yazırdı. 1566-cı ildə şirkət "Səyyar tacirlərin Moskva şirkəti" adlanıb. Şirkətin tərkibində tacirlərlə yanaşı İngiltərənin yuxarı dairələrinin nümayəndələri də iştirak edirdilər. Belə ki, şirkətin ilk təşkilatçıları içərisində xəzinədar — lord Markiz Vinçesterin, Lord Saray qrafı Pemborkun, baş admiral qraf Effingemli Hovardın adlarına rast gəlirik. 1555-ci il fərmanına görə şirkətin üzvlərinin sayı 191 nəfər olmuşdur. On il keçdikdən sonra, yəni 1565-ci ildə şirkətin üzvlərinin sayı 400-ə çatmışdır, sonra getdikcə azalmışdır. Bəzi tarixçilər şirkətin üzvlərinin sayının belə sürətlə artmasını və azalmasını təsadüfi hal deyil, əsasən Səfəvilər dövləti ilə ticarətlə və bir sıra digər səbəblərlə əlaqədə olduğunu qeyd edir.

Moskva şirkətinin səhmdar tipli olması ona bazarlar və ticarət yolları uğrunda mübarizədə öz rəqibləri qarşısında üstünlük verirdi. Bu cəhətdən ingilis tarixçisi Vilyamsonun fikri maraqlıdır. Onun fikrincə, şirkət səhmdar kapital əsasında işləyən ilk ictimai xarakterli şirkət idi. Şirkətin bütün vəzifəli şəxsləri şirkət üzvlərinin ümumi yığıncağında bir il müddətinə seçilirdi. Burada yalnız Sebastian Kabot istisna təşkil edirdi. O, şirkətin ömürlük qubernatoru seçilmişdi. Onun ölümündən sonra (1557) eyni vaxtda adətən iki qubernator seçilirdi. Məsələn, 1564-cü ilin noyabrın 20-də gizli şuraya şirkətin "qubernatorları, konsulları və başqaları" adından ərizə verilmişdi. Moskva şirkətinin qubernatorları əsasən o dövr şəhər həyatında mühüm mövqe tutan şəxslərdən seçilirdi. Hökumətdə hakim mövqeyə malik olan şəxslər isə şirkətin adi üzvü olmaqla kifayətlənirdilər. Şirkətdə yüksək vəzifədə olan şəxslərdən Vilyamçester 1554-cü ildə şerif, 1560-cı ildə isə mayor, T. Los 1559-cu ildə şerif, 1562-ci ildə mayor, R. Hovard 1563-cü ildə şerif, 1570-ci ildə mayor, C. Barn 1576-cı ildə şerif, 1586-cı ildə mayor olmuşdur. Adətən qubernatorlar müəyyən müddət konsul və assisent olmuş şəxslərdən seçilirdi. Məsələn, qubernatorlardan Tomas Los (Thomas Loge, 1561–1567), Roulant Hadvard (Rowland Hayward, 1580–1584) və Corc Barn (George Barne, 1580) şirkətin yarandığı 1555-ci ildə assisent və konsul olmuşlar. Qubernatorlar, konsullar və assisentlər cəmiyyətin geniş hüquqlarına malik olan idarə heyətini təşkil edirdilər. İdarə heyəti 30 nəfərdən ibarət idi. Buraya iki nəfər qubernator, dörd konsul, iyirmi dörd assisent daxil olurdu. İdarə heyəti yeni qanunlar işləyib hazırlayır, onun yerinə yetirilməsinə nəzarət edir, yeni üzvlər qəbul edir və günahkarları cəzalandırırdı. Qərarların qəbul edilməsi üçün idarə heyəti üzvlərindən ən azı 15 nəfərin iştirakı zəruri idi.

İcraedici hakimiyyət serjantlara (sergants) məxsus idi. Onlar cəmiyyətin göstəriş və qərarlarını həyata keçirirdilər və idarə heyətinin köməkçiləri hesab olunurdular. Serjantlar haqq və cərimələri toplayır, günahkarları həbs edir və əmlakları müsadirə edirdilər. İdarə heyətinin iclaslarında başqa cəmiyyətin bütün üzvlərinin illik iclasları keçirilirdi. İllik yığıncaqlar adətən yazın və yayın əvvəllərində, yəni şirkətin Moskva dövləti ilə və Moskva dövləti vasitəsilə Səfəvilər dövləti ilə ticarət əməliyyatlarının başlandığı vaxta təyin olunurdu. İdarə heyətinin iclasları və yığıncaqlar İngiltərənin özündə, şirkətin Sitidə yerləşən ofisi — Moskva evində keçirilirdi. Şirkətin əsas işləri Rusiyada aparıldığı üçün cəmiyyət bu işləri həyata keçirmək üçün "agentlər" adlanan (agents) xüsusi muzdlu şəxslər təyin edirdilər. Agentlər ticarət əməliyyatları ilə yaxından tanış olan, kifayət qədər savadlı və tacirlər içərisindən çıxmış şəxslərdən seçilirdi. Bunlar adətən şirkətin üzvü olmaq üçün kifayət qədər mülkiyyəti olmayan şəxslər idi. Lakin müəyyən vəsait əldə etdikdən sonra onlar asanlıqla şirkətin üzvü ola bilərdilər. Şirkət adətən özünə iki yaxud üç agent seçirdi. Bunların yanında isə köməkçiləri, assisentləri olurdu. Agentlərin vəzifəsi əslində idarə heyətinin göstərişlərini yerinə yetirməkdən ibarət

idi. Lakin idarə heyətinin Rusiyaya aid olan məsələlərdən az xəbərdar olması və agentlərin idarə heyətindən uzaq olması elə bir vəziyyət yaradırdı ki, əslində cəmiyyətin taleyi onların əlinə keçirdi və onlardan bir çoxu cəmiyyətin mənafeyini öz mənafelərinə qurban verməkdən çəkinmirdilər.

Tədricən şirkətin ticarət işlərinin idarə olunması, onun mənafeyinin Rus dövləti qarşısında müdafiə edilməsi, faktorlara və usta köməkçilərinə nəzarət olunması agentlərin əlinə keçdi. İdarə heyəti ticarətin aparılması və xidmətçilərin davranışı haqqında qaydalar tərtib etməyi və bunları rəhbərlik üçün Rusiyanın müxtəlif şəhərlərinə göndərməyi, tabe olmayanları cəzalandırmaq və İngiltərəyə geri göndərmək, layiqli adamları seçib özlərinə müavinlər hazırlamağı onlara tapşırırdı.

İngiltərədə yerləşən idarə heyəti Rusiyadakı işlərlə yalnız agentlərin hesabatları üzrə tanış idi və agentlərə şübhə ilə yanaşmağa onun tam əsası var idi. Buna görə də idarə heyəti Rusiyada geniş qarşılıqlı casusluq sistemi yaratmışdı. Hələ 1556-cı ildə cəmiyyət öz xidmətçilərinə, o cümlədən bir-birinə nəzarət etmək, bütün sui-istifadə hallarını xəbər vermək haqqında göstəriş vermişdir.

Agentlərin təyin edilməsi üsuluna girdikdə isə belə bir fakt məlumdur ki, 1555-ci ildə təyin olunmuş agentlər öz səlahiyyətlərini həmin ilin mayın 1-də toplanmış ümumi iclasda qubernatorlardan, konsullardan, assisentlərdən və bütün şirkətdən almışdılar. Agentlərdən sonrakı pilləni bilavasitə agentə tabe olan xidmətçilər təşkil edirdilər.

*Bunlar iki kateqoriyaya ayrılırdılar:* stipendiatlar (stipendarries) və usta köməkçiləri (apprentices).

Stipendiatlar usta köməkçilərini cəzalandırdıqları halda, stipendiatları yalnız geriyə — İngiltərəyə qaytara bilərdilər. Agentlər öz müqavilələrini stipendiatlar içərisindən seçib hazırlamalı idilər. Xidmətçilərə və usta köməkçilərinə şəxsi ticarət qadağan olunurdu. Onlara ümumi hesabdan əmək haqqı verilirdi.

Şirkətin tərkibinə daxil olan daha aşağı xidmətçilər kateqoriyası haqqında da məlumat vardır. Bunlar "inferrion ministers" — "ən aşağı xidmətçilər" adlanır və şirkətin nizamnaməsinə əsasən iki kateqoriyaya bölünürdülər: clerks (ticarət xidmətçisi) və young merxhants (gənc tacirlər). Xidmətçilərə nalayiq sözlər danışmaq, qumar oynamaq, mübahisə etmək və s. qadağan olunurdu. Xəstələrə hamı himayə göstərməli, ölən şəxslərin əmlakı siyahıya alınmalı və kapitalın sərəncamında saxlanılmalı idi. Kapitanın və onun köməkçilərinin razılığı olmadan heç bir tacir ticarətlə məşğul ola bilməzdi, bütün alınan və satılan mallar xüsusi tacir kitabında qeydə alınmalı idi (Vauqhn, 1912).

Şirkətin təşkili parlamentdə müzakirə olunmuş, kral hakimiyyəti tərəfindən xüsusi fərmanla təsdiq olunmuş, özünün bütün fəaliyyəti ərzində şirkət Gizli Şura ilə əlaqə saxlamış və ona tabe olmuşdur. Moskva şirkətinin yaranması və xarakteri haqqında kraliça I Yelizavetanın 1568-ci il sentyabrın 16-da Rus çarı IV İvan(a) göndərdiyi məktubda aydın təsəvvür yaradılır. Məktubda deyilir: "Parlamentin müzakirəsinə Moskva ilə ticarət təşkil olunması haqqında məsələ verilmişdir. Parlamentdə qərara alınmışdır ki, bu ticarət təkcə tacirlərdən deyil, heç bir ingilisi istisna etməməklə göstərilən məlum şərtlər və müəyyən olunmuş qaydalar əsasında cəmiyyətin işləyəcək başqa şəxslərdən də təşkil edilmiş bir məşhur cəmiyyət tərəfindən aparılsın. Məlumdur ki, bu başlanan ticarətdə bütün işçilər, xərclər, əmək haqqında sərf olunan pullar və gəlir hamı üçün ümumi olmalıdır. Cəmiyyətdə öz təcrübəsi, biliyi və hakimiyyətlə başqalarından üstün olanlar var, başqa cür ola bilməz. Lakin başqa münasibətlərdə həm rəy verilməsində, həm də gəlirin bölüşdürülməsində hamı bərabər hüquqludur. Bu məşhur cəmiyyət parlamentin ali hakimiyyəti altında həmin əsaslarda əvvəldən belə yaranmışdır".

Moskva şirkətinin şimal-şərq istiqamətində ilk ekspedisiyası Hyu Uillobu və Riçard Çenslorun başçılığı ilə 1553-cü ildə təşkil olunurdu. 1553-cü ilin mayın 11-də səhər Qriniç yaxınlığında Temza çayının sahilində qeyri-adi canlanma vardı. Gündüz saat 2-də tamaşaçıların şən qışqırtıları altında böyük olmayan gəmi göründü. Bu səyahət nəticəsində böyük çətinliklərdən sonra Riçard Çenslor Moskvaya gəlib çatdı. Beləliklə, Rusiya ilə İngiltərə arasında Şimal yolu vasitəsilə ticarət əlaqələri yarandı. Azərbaycanla münasibətlər dövrü (XVI əsrin 80–90-cı illəri nəzərdə tutulur) Moskva şirkətinin tarixində ən mühüm dövrü təşkil edir. Təsadüfü deyil ki, şirkət üzvlərinin sayının və onun kapitalının ən çox artması məhz həmin illərə təsadüf edir.

Yuxarıda göstərdiyimiz kimi şirkət üzvlərinin sayı 1555-ci ildə 191, 1565-ci ildə 400, XVII əsrin əvvəllərində cəmi 160, XVIII əsrin ortalarında isə az — cəmi 55 nəfər olmuşdur. Şirkətin kapitalı isə 1553-cü ildə 6 000 funt-sterlinq, 1564-cü ildə 40 000 funt-sterlinq, 1583-cü ildə 80 000 funt-sterlinq olmuşdur (Ashurbeyli, 1983).

İngiltərə şimal-qərb dəniz yolu ilə Hindistana və Çinə yol açmaq təşəbbüslərini Moskva Şirkəti həyata keçirirdi. Onu da qeyd etmək lazımdır ki, Moskva Şirkətinin şimal-qərb istiqamətində yol açmaq cəhdləri və Rusiya ilə ilk ticarət əlaqələri bu işin əsas məqsədi deyildi. Lakin Səfəvilər dövləti ilə İngiltərə arasında ticarət əlaqələrinin yaranması bunun nəticəsi kimi meydana gəldiyindən və ümumiyyətlə bu əlaqələr mərkəzləşdirilmiş Rus dövləti vasitəsilə həyata keçirildiyindən həmin cəhdlər üzərində qısaca dayanmaq zəruridir. Bu dövrdə İngiltərənin xarici ticarətinin zəifləməsi ilə əlaqədar olaraq “İngilis tacirləri ticarət düşkünlüyünün qarşısını almaq vasitələrini müzakirə etdilər və bu fikrə gəldilər ki, onlar ispan və portuqallar kimi yeni ölkələr açmaq və yeni mənbələrini axtarmalıdılar”.

Rusiya ilə ticarət münasibətləri yaratdıqdan sonra ingilis tacirləri şimal-qərb və şimal-şərq istiqamətlərində Hindistana dəniz yolu kəşf etmək təşəbbüslərini davam etdirirdilər. Bu məqsədlə Rusiya və Orta Asiya vasitəsilə Hindistan və Çinə yol açmaq məsələsi Moskva şirkətinin üzvlərinin diqqətini cəlb etmişdi. Elə buna görə də 1558-ci ildə Antoni Cenkinson Buxaraya yola düşdü. 1558-ci il avqustun 10-da ingilislərdən ilk dəfə olaraq Cenkinson Xəzər sularında üzərində Müqəddəs Georgun qırmızı xaçı olan bayraq qaldırdı. Bu ilk səyahətində Cenkinsonu yalnız iki nəfər ingilis taciri müşayiət edirdi. Lakin özü ilə o qədər yük götürmüşdü ki, sonra bunları qaldırmaq üçün minə qədər dəvə lazım olmuşdur. Bu səyahətdən sonra Cenkinson belə nəticəyə gəldi ki, burada ticarət faydasızdır, Orta Asiya vasitəsilə Çinə çatmaq çətin və qorxuludur, hətta mövcud şəraitdə tamamilə qeyri-mümkündür. Qeyd etmək lazımdır ki, 1558–1560-cı illərdə həyata keçirilmiş bu səyahətin Moskva şirkətinin sonrakı fəaliyyəti üçün çox böyük əhəmiyyəti olmuşdur. İngilis tarixçisi Vaunun qeyd etdiyi kimi, R. Çenslorun səyahəti Rusiya ilə İngiltərə ticarətinin əsasını qoyduğu kimi, Cenkinsonun bu səyahəti də Rusiyadan qabaq Asiya ölkələrinə səyahətin yolunu göstərirdi və bu səyahət Moskva şirkətinin bütün sonrakı səylərinin istiqamətini müəyyən etdi. Məlum olduğu kimi, Cenkinson bu səyahəti müddətində Səfəvilər dövləti ilə ticarət haqqında məlumatlar toplamış və ehtimal ki, həm Həştərxanda, həm də Buxarada olarkən o, bu ölkənin tacirləri ilə bilavasitə əlaqəyə girmiş, öyrənə bildiyi məlumatları geri qayıdarkən şirkətin idarə heyətinə təqdim etmişdir. Cenkinson Həştərxanda olarkən xəbər verirdi ki, tatarlar buraya pambıq, yun və ipəkdən hazırlanmış müxtəlif mallar gətirdilər; İranda, məhz Şamaxıdan Rusiyada ən çox işlənən ipək saplar, kəmər üçün bəzəkli ipək və s. bəzən taxıl və qoz gətirirlər. Əvvəllər Cenkinson belə fikirdə idi ki, Xəzər dənizi vasitəsilə Səfəvilər dövləti ilə ticarət etmək ümidsizdir, çünki ölkənin yolları çətin keçilən, əhalisi isə yoxsul idi, onlara lazım olan Avropa mallarını isə Türkiyədən gətirmək olardı (Geyderov, 1982).

O, yazırdı: “...Şamaxı (Midiya) və İran ticarətinə gəldikdə, mən o haqda kəşfiyyat apardım və öyrəndim ki, o da tatar ticarətinə bənzəyir, yəni satış az, qazanc cüzidir, əsas İran ticarəti isə Suriya Livan dənizinə doğru gedir. Həştərxanda Şamaxıdan tacirlər vardı. Mən həmin tacirlərə onların malları əvəzində karazeya təklif etdim, lakin onlar razı olmadılar; çünki bunu onların ölkəsində belə ucuz almaq olardı”.

Lakin Buxara səyahətini sona çatdırdıqdan və bu ölkələrlə ticarət imkanları haqqında tam məlumatlar əldə etdikdən sonra Cenkinson belə nəticəyə gəldi ki, burada ticarət üçün xeyli əlverişli imkanlar vardır və şirkətin idarə heyəti bu imkanlara laqeyd qalmayacaqdır. Buxaradan qayıtdıqdan sonra hələ Moskvada olarkən Cenkinson açıqca bildirdi ki, Xəzər dənizi sahillərindəki əyalətlər şirkət üçün gözəl fəaliyyət meydanı ola bilər. Onun bu mülahizəsi belə bir fakta əsaslanırdı ki, İslam dininin şiə məzhəbinə etiqad edən Səfəvilər dövləti bu dinin sünni məzhəbinə etiqad edən türklərə nifrət edir. Ona görə də bu iki ölkə arasında tez-tez müharibələr baş verir və bunun nəticəsində bu ölkələr arasında uzun müddət ticarət tənəzzülə uğrayır. Bu fikrə münasibət yerinə düşərdi ki, Səfəvi–Osmanlı müharibələri təkcə dini ziddiyyətlərin nəticəsi kimi deyil, daha çox Avropa dövlətlərinin bu iki müsəlman, yaxın dövlətləri bir-birinə qarşı qızışdırmaq, müharibəyə cəlb etmək, bununla da xüsusilə Osmanlı dövlətinin Qərbə genişlənməsinin qarşısını almaq, onu Səfəvilərin əli ilə məğlub etmək

siyasətinin nəticəsi idi. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, Səfəvi–Osmanlı müharibələri Türkiyənin Şərqdə, xüsusilə Qafqazda möhkəmlənmək təşəbbüslərinin nəticəsi kimi də meydana çıxırdı. Cenkinsonun fikrincə, hər hansı bir Asiya taciri həmin malları gətirib ingilis malları ilə dəyişə bilər, yaxud daha yaxşısı, həmin şirkət İran ərazisi vasitəsilə keçirərək özləri üçün həmin malları əldə edə bilərlər.

Beləliklə, Cenkinsonun Buxaraya etdiyi səyahət nəticəsində Moskva şirkətinin idarə heyəti 1561-ci ildə Səfəvilər dövləti ilə ticarət əlaqələri yaratmağı qərara aldı və həmin vəzifənin yerinə yetirilməsini Cenkinsona həvalə etdi. Professor İ. A. Lyubimenko qeyd edirdi ki, bu səyahətin (Buxara səyahətinin) ən qiymətli nəticəsi ondan ibarət oldu ki, şirkət “İran”la ticarət aparmaq üçün lazım olan məlumatları əldə etdi və bundan sonra həmin ticarət şirkətin əsas vəzifələrindən birinə çevrildi (Tolstoy, 1876).

1561-ci ilin may ayında Antoni Cenkinson Londonu tərk etdi və bu səyahət nəticəsində İngiltərə ilə Səfəvilər dövləti arasında XVI əsrin 60–80-ci illərində davam edən canlı ticarət əlaqələrinin əsası qoyuldu. Səyahət haqqında bəhs etməmişdən öncə Moskva şirkətinin fəaliyyətində Azərbaycanın yeri, Azərbaycanla ticarətin üstünlükləri və ticarətdə ingilis tacirlərinin məqsədləri böyük əhəmiyyət kəsb edirdi. Belə ki, hələ Rusiya ilə ticarət əlaqələrini davam etdirərkən ingilis tacirləri ümid edirdilər ki, Rusiya vasitəsilə Səfəvilər dövləti ilə olduqca gəlirli və faydalı ticarət təşkil etmək olar və ümid edirdilər ki, Xəzər dənizi vasitəsilə Volqa çayı ilə yuxarı, Dvina çayı ilə aşağı, Ağ dənizə doğru daim, kütləvi surətdə İran ipəyi və ehtimal ki, Hindistandan ədviyyat və digər zinət şeyləri gətirmək olar. Cenkinsonun səyahətindən sonra Cenkinson özü, istərsə də davamçıları əvvəllər Rusiya olduğu kimi, indi də Azərbaycanı Şərqə doğru sonrakı irəliləyişlər üçün dayaq məntəqəsinə çevirməyə çalışırdılar. Doğrudan da, Moskva şirkətinin tacirləri Şamaxıda möhkəmlənə bildilər və əvvəllər Xolmoqor şəhəri olduğu kimi, indi də Şamaxı ölkənin içərilərinə doğru irəliləmək üçün dayaq məntəqəsinə çevrildi.

İngilis tarixçisi Vaunun fikrincə, Səfəvilər dövləti ilə ticarət əlaqələrinin yaradılması və inkişaf etdirilməsinin ingilis tacirləri üçün əvvəldən ona görə əhəmiyyətli idi ki, yaxşı ipək istehsal edən əyalətlər — Şirvan, Gilan və Mazandaran ölkənin şimalında, Xəzər dənizinin bilavasitə yaxınlığında idi və beləliklə, Rusiyadan bura asanlıqla gəlmək olardı. Bu hal portuqallara nisbətən ingilis tacirlərinə xeyli üstünlüklər vəd edirdi, çünki portuqalların limanları qiymətli Şərq mallarının mənbəyindən bir neçə mil uzaqlıqda idi. İkincisi, Türkiyə ilə Səfəvilər dövləti arasında daimi müharibə ehtimalı və beləliklə, Səfəvilər dövlətinin Aralıq dənizi ticarət yolu vasitəsilə Avropa ölkələrindən mal alınmasının kəsilməsi ehtimalı həmin ticarətin üstünlüklərini daha da artırırdı. Nəhayət, üçüncüsü, ingilis tacirləri ümid edirdilər ki, Səfəvilər dövlətindən bir əməliyyat bazası kimi istifadə etməklə İran körfəzinə və Hindistana doğru irəliləmək və çox arzu edilən Şərq mallarını Portuqaliya ilə toqquşmadan Volqa–Xəzər yolu və şimal vasitəsilə İngiltərəyə gətirmək olar. Beləliklə, Səfəvilər dövləti ilə əlaqələr yaratmaq üçün tərtib olunan planların əvvəlki planlara nisbətən üstünlükləri tamamilə aşkar idi (Akhmedov, 1967b).

Moskva şirkətinin üzvü, şirkətin Moskvadakı agenti Mixail Lokk Azərbaycanla ticarətinin üstünlükləri barədə danışarkən yazırdı: “Rusiya vasitəsilə İngiltərəyə gedən “İran” ticarətinin İngiltərə üçün fövqəladə əhəmiyyəti olardı, belə ki, zinət şeyləri, ədviyyat, ipək, rəngsazlıq malları və s. mallar orada özünün ilk mənbəyindən alına bilərdi. Bütün bunlar türklər tərəfindən qorxu olmadan, İtaliyanın, İspaniyanın xəbəri olmadan və Portuqaliyanın hər hansı icazəsi olmadan asanlıqla daşına bilərdi; həm də Rusiya və İranın bütün bu məhsulları şimal dənizləri vasitəsilə çoxlu miqdarda İngiltərəyə gedər və həmin malların daşınması üçün hökmdara ədalətli gömrük haqqı verməklə yenidən ingiltərə tacirləri vasitəsilə Finlandiyaya, Almaniyaya, Fransaya, İspaniyaya və İtaliyaya ixrac oluna bilərdi”.

M. Lokk daha sonra yazırdı ki, İran ticarətinə (Səfəvilər dövləti ilə — T.B.) gəldikdə onun zənginliyi ölçülməzdir, çünki uzun illər ərzində Venesiya, Ankona, Messina, Raquza, Genuya və digər İtaliya şəhərləri onların var-dövlətinin çox hissəsini gətirirdi. Bu da İtaliya onun nəticəsi idi ki, Teinson və Hələb vasitəsilə Suriyaya xam ipək, ədviyyat, pambıq və yun parçalar və s. mallarla ticarət edirdilər (Shamkhaliyev, n.d.).

Buxara səyahətindən sonra Cenkinson belə bir nəticəyə gəlmişdir ki, Moskva şirkəti bilavasitə Səfəvilər dövləti ilə ticarət etməkdən əlavə, eyni zamanda həmin şirkətin faktorları "İran" ərazisi vasitəsilə şərqdən gətirilən malların bilavasitə mənbəyinə çata bilərdilər. Şirkət Cenkinsonun gətirdiyi dəlilləri kifayət qədər əsaslı edib Səfəvilər dövlətinə təşkil edilən I ekspedisiyaya başçılığı ona həvalə etdi. Onun mənşəyi və anadan olması tarixi haqqında etibarlı mənbələri olmamasına baxmayaraq (bəzi tarixçilərin fikrincə, Cenkinson Uorkşir qrafları əyan nəslindən idi, başqaları onu Oksfordşir əyalətində Şerlbyuri yaxınlığında Uelkot adlı yerdə məskən salmış Cenkinsonlar familiyasının banisi hesab edirdilər), heç şübhə yoxdur ki, Cenkinson mənşəcə Britaniya cəmiyyətinin burjua dairələrinə yaxın olan əyan nəslindən idi və İngiltərə ticarət kapitalının mənafeyini ifadə edirdi. Hələ gənc ikən Cenkinson 1546-cı ildə ticarət məqsədilə Şərq ölkələrinə səyahət etmişdi. Sonrakı illərdə Cenkinson İspaniya, İtaliya, Yunanıstan və Türkiyəyə yola düşmüş İngiltərə təbəələri üçün ticarət imtiyazları almışdır. Antoni Cenkinsonun səyahəti 1561-ci il mayın 14-də, kraliça I Yelizavetanın (1558–1603) hakimiyyətinin üçüncü ilində başlamışdır. O, həmin ilin iyulun 14-də Rusiyadakı Müqəddəs Nikolay buxtasına çatmış və iyulun 26-da Moskva şirkətinin oradakı nümayəndələri ilə müşavirədən sonra buxtanı tərk etmiş, avqustun 8-də Bolqadıya, avqustun 20-də isə Moskvaya çatmışdır. Burada Cenkinsonun Rus çarı ilə görüşü uzun müddət baş tutmur. Çarın ona kraliçanın xahişinə əsasən öz mülklərindən keçərək Səfəvilər dövlətinin ərazisinə keçməyə icazə verib-verməyəcəyini bilmək üçün çarın katibinə müraciət edir. Ona cavab verilir ki, o tərəflərə — çərkəzlərin torpaqlarına qoşun göndərməyə hazırlaşdığından güman etmək olar ki, oraya getməyə icazə verilməyəcəkdir. Bu cavabdan sonra Cenkinson geriyə, İngiltərəyə qayıtmağa hazırlaşdığı zaman çarın katibi Osip Nensye adlı şəxs ona bildirir ki, onun İrana getməsi barədə şəxsən çara hesabat verilməyənə qədər yola çıxmasın. Bundan üç gün sonra katib Cenkinsona bildirmişdir ki, çar nəinki ona mülklərindən İrana getməyə icazə verir, həm də xarici dövlətlərə məsləhətçi fəxri fərmanlar verərək özünün bəzi işlərini ona tapşırır. "Bundan sonra mən səfər hazırlığına başladım və 15 may 1662-ci ildə əlahəzrət çarın və İran səfirinin iştirakı ilə nahar etdim." (Gasanzade, 1991).

Qeyd etmək lazımdır ki, 1566–1572-ci illərdə Antoni Cenkinson daha bu tədqiqat iki dəfə Moskvada olmuşdur. Axırıncı dəfə o, İngiltərə kraliçası I Yelizavetanın Moskva çarı IV İvanın yanında səfir kimi olmuşdur. Cenkinson bu səfərlərində, xüsusilə Qafqaza və Orta Asiyaya etdiyi səfərlərində Səfəvilər dövlətinin şəhərləri, adət-ənənələri, iqtisadi durumu, regionun geopolitik vəziyyəti haqqında aydın təsvirlər vermişdir.

Antoni Cenkinson 1561-ci il avqustun 3-də Dərbəndə gəlmiş, avqustun 12-nə qədər orada qalmışdır. O, qeydlərində Dərbənd şəhərinin qədimliyindən və möhtəşəm qala divarları haqqında bəhs etdikdən sonra yazırdı: "Dərbənd şəhəri hazırda İran sufilərinin (Səfəvilər dövlətinin — T.B.) hakimiyyəti altındadır və sahildən dənizə 41 dərəcə enlikdə yerləşir. Buradan biz cənub-şərqə və cənub-qərbə doğru təqribən 80 mil hərəkət edərək avqustun 6-da Şabrana çatdıq." O, avqustun 18-də Şirvan ölkəsindəki Şamaxı (Svamaky) şəhərinə çatmış, ertəsi gün Şirvan bəylərbəyi Abdulla xanla (Obdolowcan) görüşmüşdür. Abdulla xan Cenkinsonu əsl təmtəraqla qarşılamış və nahara dəvət etmişdir. O, öz təsvirlərində Abdulla xanın yerləşdiyi çadırı, nahar zamanı verilmiş yeməklər haqqında bəhs etdikdən sonra görüş haqqında yazır: "Naharın sonunda kral mənə kuş geldi (quosh quelde), yəni xoş gəldin dedi." (Makhmudov, 1991).

Bundan sonra o, mənə din və bizim ölkələrimizin vəziyyəti ilə əlaqədar suallar verdi. Məndən soruşdu ki, Alman imperatoru, Rus çarı, yoxsa türk sultanı güclüdür? Bütün suallara mən lazım bildiyim tərzdə cavab verdim. Sonra o, mənim gəlişimin səbəbləri və səfərimin davam edib-etdirməyəcəyim barədə soruşdu. Cavab verdim ki, mən kraliça tərəfindən böyük Sufidən dostluq və sərbəst hərəkət etmək barədə xahiş etmək, həmçinin ona mülklərində ingilis tacirlərinə ticarət üçün mühafizə vərəqləri verilməsi barədə müraciət etdim. Bildirdim ki, bu cür vərəqlər onun təbəələrinə də bizim ölkəmizə gəldiyi zaman veriləcəkdir. Bu ölkələrimizin şəraf və rifahına xidmət edəcəkdir. Kral mənim sözlərimi təqdir etdi və bildirdi ki, məni müşayiət və Fars körfəzindəki Qəzvin qalasına qədər olan 30 gün ərzində mühafizə etmək üçün dəstə verəcəkdir." Bu göstərişdən bəhs edərkən Azərbaycan ipəyini ələ keçirmək üstündə İngiltərə, Venesiya Respublikası və Türkiyə arasında nə qədər kəskin rəqabət olduğu aydın göstərilir. Cenkinson yazır: Şirvan kralının yanında və onun

qəbulunda olduğum zaman müxtəlif məsələlər barəsində apardığımız danışıqlar zamanı... Abdulla xan məndən soruşdu ki, biz — ingilislər türklərlə dostuq, ya yox? Mən cavab verdim ki, biz heç vaxt dost olmamışıq. Çünki onlar bizə heç zaman öz ölkələrindən keçib Sufinin torpaqlarına gəlməyə icazə verməmişlər. Lakin bizim yaxınlığımızda venesiyalılar adlı bir millət var. Onlar türklərlə böyük razılıq şəraitində yaşayır, onların torpaqlarında bizim mallarımızla ticarət edirlər. Onlar bizim mallarımızı başlıca olaraq xam ipəyə dəyişirlər. Xam ipək isə oraya, bizim bildiyimizə görə İrandan aparılır... Əgər türklər venesiyalılara icazə verdikləri kimi, Sufi də bizə öz torpaqlarında ticarət etməyə ixtiyar versə, bizə pasport və toxunulmazlıq vərəqələri versə, mən şübhə etmirəm ki, burada ticarət heç bir dövrdə müqayisə olunmayacaq dərəcədə genişlənəcək. Kral məni başa düşərək özünün tam həmrəyliyini ifadə etdi və dedi ki, bu barədə Sufiyə yazacaqdır...”

Cenkinson avqustun 24-də Abdulla xanla ikinci dəfə görüşdükdən və ondan Sufinin qəbuluna getmək üçün icazə aldıqdan sonra yenidən Şamaxıya qayıtmış, oktyabrın 6-na qədər orada qalmışdır (Tumanovich, 1982).

Qeyd etmək lazımdır ki, Abdulla xan Cenkinsona Qəzvinə getmək üçün bütün təchizatı olan at bağışlamış və bütün mallarını rüsumlardan azad etmişdir. Cenkinson öz gündəliyində Şamaxıdan getməmişdən öncə Şirvan bəylərbəyliyi haqqında qiymətli təsvir vermişdir. “...Lakin getməmişdən öncə nəinki adı Şirvan olan Hirkan ölkəsi, onun şəhərləri və orada istehsal olunan mallar haqqında bəzi qeydlər etmək istəyirəm. Bu ölkənin kralları qədim zamanlarda çox qüdrətli olmuş və fars sufiləri ilə döyüşmək gücündə olmuşlar. Amma indi vəziyyət tamamilə dəyişmişdir: nəinki şəhərlər, qalalar və qəsrlər tənəzzülə uğramış, kral adı çəkilən Sufiyə tabedir (bütün hirkanlıların öz məxsusi kralları olur) və onun hakimiyyəti altındadır. Sufi Hirkanı müxtəlif din ayrılıqlarına görə neçə illər qabaq istila etmiş, bu ölkənin təkcə tanınmış və müdrik şəxslərini deyil, bundan əlavə sonradan üsyan olmaması üçün Şamaxıda ağ daşlardan qala tikdirmiş və edam edilmiş insanların başlarını bura vurmuşdur. Dənizdən Şamaxıya dəvə ilə yeddi günlük yoldur. Ölkənin ən əsas şəhəri Gürcüstanla sərhəddə yerləşən Ərş şəhəridir. Bundan əlavə, şəhərin ətrafında xam ipək istehsal edilir; oraya ticarət məqsədilə türklər, suriyalılar və digər əcnəbilər gəlirlər. Bu ölkədə müxtəlif çeşidli, keyfiyyətli və zəruri mallar tapmaq da olar. Bunlara təbii şəkildə ölkədə yetişdirilən məhsullar, qırış və hamar qabıqlı qoz, kətan, xam ipək, ədviyyatın bütün növlərini və Şərqi Hindistandan az miqdarda gətirilən digər malları əldə etmək olar. Lakin burada bol olan əsas məhsul bütün növ xam ipəkdir. Şamaxıdan bir qədər aralıda indi Sufi tərəfindən dağıdılmış qədim Gülüstan (Gullistone) qalası yerləşir. O, dünyanın ən möhtəşəm qalalarından biri hesab olunur: Böyük Aleksandr onu fəth etməmişdən əvvəl uzun müddət mühasirədə saxlamışdır. Bu qalanın yaxınlığında möhtəşəm bir monastır yerləşir. Bu monastırda kralın qızı atasının onu zorla tatar hökmdarlarından birinə vermək istədiyinə görə özünü öldürmüş Amelek Xanna (Amelek Channa) dəfn olunmuşdur. O gedibmiş ki, heç vaxt bakirəliyinin pozulmasına imkan verməyəcəkdir. Ona görə də ölkənin qızları hər il onun qəbri üstündə göz yaşı axıdırlar.” (Akhmedov, 1967a).

Bu ölkədə ən yüksək hissədə Arpoest adlı iki böyük buynuzlu, tək gözlü, quyruğu inək quyruğuna, qulaqları və gözü atınkına oxşar nəhəngin yaşadığı, yerli əhalinin arasında Kuifis (Quiqfs) adlı dağ yerləşir. Deyilənlərə görə, bu əcaib Xokorxamş (Houcoir Hamshe) adlı müqəddəs kişi gələnə qədər yaxına heç kəsi buraxmırmış. Sufilərin qohumlarından biri dağa çıxaraq bu nəhəngə qalib gəlmiş, onun Lamsiaq adlı arvadını və oğlu Aftrrini zəncirləmişdir. Bu qələbəyə görə ölkənin əhalisi onun xatirəsini əziz tutur. Şayiələrə görə, bu gün də heç kəsin yaxınlaşa bilmədiyi bu dağ olduqca pis qoxu verir.” 1562-ci il oktyabrın 6-da Şamaxıdan çıxan Cenkinson oktyabrın 16-da Ərdəbilə, noyabrın 2-də isə Qəzvin şəhərinə çatır. Qeyd etmək lazımdır ki, 1559-cu ilin sonunda türk sultanı Süleymanın oğlu Bəyazid atasına qarşı üsyan edərək məğlub olmuş və ailəsi ilə birlikdə Qəzvin şəhərinə I Şah Təhmasibin sarayına pənah gətirmişdir. Təqribən Cenkinson Qəzvinə gəlməmişdən bir müddət əvvəl əsas vəzifəsi şahın Bəyazidi türk sultanına qaytarmasına nail olmaq olan nümayəndə heyəti də buraya gəlmişdi. Cenkinson qeyd edir ki, bu heyət onun Qəzvinə gəlişindən dörd gün öncə, Oqtay Əfəndiyev isə Qazi Əhməd Qaffarinin *Traix-i-cahan-ara* əsərinə istinad edərək 1562-ci ilin iyulunda gəldiyini qeyd edir. Bu nümayəndə heyətinin səfərinə və Səfəvilər ilə Osmanlı dövləti arasında imzalanmış sülh müqaviləsindən bəhs edən səyyah yazır: “...Hər iki tərəf Əl-Quran (Alcaron) qanununa görə

möhkəm andlaşmalarla sülh bağlamışdır. Hər bir tərəf sülhə riayət etməyi öhdəlik götürmüş, hökmdarlardan birinin digər hökmdarlara qarşı müharibəyə başlayacağı təqdirdə qarşılıqlı yardım edəcəklərinə and içmişlər. Sülh müqaviləsi imzalandıqdan sonra Sufi atasının yanından qaçaraq onun yanına gələn və dörd il sarayda yaşayan Bəyazid sultanın qətli barədə əmr vermişdir. ...Müqavilə imzalandıqdan sonra Qəzvindəki türk tacirləri səfirə bəyan etdilər ki, mənim gəlişim onların ticarətini pozacaq. Onlar səfirə dedilər ki, Sufiyə çatdırsın ki, əgər o, böyük sultanla dostluq və müttəfiqliyə əməl etmək istəyirsə, mənə xoş münasibət bəsləməsin. Türk tacirlərinin bu xahişi barədə səfir Sufiyə ciddi təqdimat verdi."

Şah Təhmasib noyabrın 20-də Cenkinsonu qəbul etmişdir. Qəbulda ingilis taciri şaha gəlişinin məram və məqsədi barədə məlumat verərək hədiyyələr və İngiltərə kraliçası I Yelizavetanın fərmanını təqdim etmişdir.

Bu görüş zamanı şah Cenkinsonla bir sıra məsələlər — beynəlxalq vəziyyət, din və s. haqqında fikir mübadiləsi aparmış, İngiltərə tacirinin səfərinə ehtiyatla yanaşaraq ona qeyri-müəyyən münasibət göstərmişdir. Şahın belə mövqe tutmasını isə Cenkinson şahın türk sultanı ilə olan ittifaq və dostluğu ilə bağlayırdı.

"Sufi mənimlə əlaqədar müşavirləri və yaxın adamları ilə məsləhətləşmişdir (Azerbaydzhan tarikhi, 1996).

Onlar onu inandırdılar ki, mənim qəbulumu yaxşı təşkil etməsi və mənim bir firəng olaraq qardaşı, Böyük sultana düşmən olan xalqa məxsus olduğum üçün ona fərman və hədiyyələr verməsin. Onlar deyirdilər ki, bu xəbərin sultana çatacağı təqdirdə yeni ittifaq və dostluq pozula bilər. Onlar həm də hökmdarın kafirlər ilə dostluq etməyə lüzum olmadığını deyir, məni gətirdiyim fərmanla birgə sultanın yanına göndərməyi təklif edirdilər."

Qeyd etmək lazımdır ki, Şirvan bəylərbəyi Abdulla xanın məsləhəti ilə şah öz qərarını dəyişmiş və 1563-cü il martın 20-də (bu tarixdə Cenkinson tərəfindən anlaşılmazlığa yol verilmişdir. Çünki o, Qəzvinə 1562-ci il noyabrın 2-də gəlmişdir) səyyaha qızıl parçadan olan zəngin paltar bağışlamışdır (Gerson, 1912).

Cenkinson Abdulla xanın bu təklifi və bunun şaha necə əsaslandırılması barədə yazır: "...O, (Abdulla xan) şaha məsləhət görürdü ki, onun torpağına öz istəyimlə gəldiyimi nəzərə alaraq mənə qarşı münasibətini dəyişsin. Əgər mənimlə pis davransa, az sayda əcnəbi onun ölkəsini ziyarət edəcək və ona ziyan verəcəkdir." Qeyd etmək lazımdır ki, səyyah bu məsələ barədə Qəzvindən geriyə qayıdarkən aprelin 15-də Abdulla xanla növbəti görüşündə də bəhs etmişdir. ...Abdulla xan bilirdi ki, əgər o, olmasa idi mən tamamilə məğlubiyyətə uğrayar və qeyri-qanuni müşavirlərin məsləhətləri, xüsusən bu işin sifarişçiləri və məsləhətçiləri olan seyidlərin (Zieties) və ruhanilərin inandırılması nəticəsində mən məhv ola və sufidən türk sultanına hədiyyə göndərə bilərdim. Sufi özü əvvəlcə mənə yaxşılıq etməyi çox arzulasa da və məni yaxşı qəbul təşkil etmək istəsə də, Böyük türk sultanı ilə sülh və dostluq müqaviləsini imzalaması buna mane olmuşdur. Kral (Abdulla xan) dedi ki, bütün bunlara baxmayaraq Sufi mənə yazmışdır ki, sən mənim ölkəmin arzu edilən qonağı olduğundan sənə yaxşı qəbul təşkil etdim. O, məni çox lütfkarlıqla qarşıladı.

Həmin mənbəyə istinadən prof. S. Əliyarov və F. R. Mahmudovun və b. tərəfindən tərtib edilmiş "Azərbaycan tarixi haqqında qaynaqlarda", s. 222-də diqqətdən yayınmışdır. Lakin ingilis dilində orijinala istinad edən Oqtay Əfəndiyevin Azərbaycan Səfəvilər dövləti kitabında tarix göstərilməmişdir (Lyubimenko, 1912a).

Cenkinson bu imtiyaz fərmanını Azərbaycana ekspedisiyaya gəlmiş Moskva şirkətinin nümayəndələri Tomas Olkok və Corc Renniyə vermişdir.

İngiltərəyə qayıdan Cenkinson aprelin 21-də Şamaxını tərk edərək 21-də Xəzərin sahilinə, 30 may 1563-cü Həştərxan şəhərinə, iyunun 15-dək orada qaldıqdan sonra avqustun 20-də Moskvaya qayıtmışdır. Səfəvilər dövlətindən gətirilmiş bütün mallar imperiya xəzinəsinə daşındı. Cenkinson çarın ailəsi və şirkətə hesabat üçün götürdüyü müxtəlif rəng və növbənöv işlənmiş ipək və qiymətli daşları çara təqdim etdi. Şirkət özünə məxsus olan kobud kətan, rənglənmiş və xam ipək və s. malları şirkətin Moskvadakı anbarına yığdı və 1564-cü ildə İngiltərəyə göndərdi. İngiltərəyə göndərilmiş xam ipək burada olduqca böyük təsir buraxdı. Belə ki, İngiltərənin Fransadakı səfiri Tomas Simit 1564-cü ilin noyabrın 22-də Uilyam Sesilə yazırdı: "Eşitmişəm ki, Rusiya vasitəsilə İngiltərəyə

gətirilən Midiya ipəyi heyratamizdir." Qeyd etmək lazımdır ki, yalnız kəşfiyyat xarakteri daşıyan birinci ekspedisiya nəticəsində şirkət Azərbaycandan 40 min livr dəyəri olan mal aparmışdır (Pnteshestvenniki ob Azerbaydzhane, 1961).

İngiltərəyə yola düşməzdən qabaq 1564-cü ildə Cenkinson çardan şirkət üçün yeni imtiyazlar almış və Moskva şirkətinin nümayəndəsi Tomas Qolverə vermişdi. O, bir müddət Moskvada qaldıqdan sonra iyunun 28-də Londona çatmışdır. İngiltərə tarixçisi Villianın fikrincə, bu imtiyazların rusca variantında İran adı çəkilməsə də, şübhəsiz ki, Cenkinson yola düşməzdən əvvəl İngiltərənin İrana yeni ticarət ekspedisiyalarını razılaşdırmışdır. Sonralar Azərbaycana göndərilən ekspedisiya-larda iştirak etməsə də, Cenkinson bu səyahətlərə çox böyük əhəmiyyət verirdi və Azərbaycana göndərilən II ekspedisiya məhz onun təşəbbüsü ilə təşkil olunmuşdur.

1563-cü ildə Moskva şirkətinin əllərində Abdulla xanın fərmanı olan (Antoni Cenkinsonun onlara verdiyi) növbəti nümayəndə heyəti Səfəvilər dövlətinə gəlmiş və onların bu səyahəti 1565-ci ilə qədər davam etmişdir. Bu heyətə səyahət zamanı öldürülən Tomas Olkok, Corc Penn və Riçard Çini daxil idi. Bu ekspedisiya şirkətin xidmətçisi Riçard Çini tərəfindən təsvir edilmişdir. Moskva şirkətinin bu ekspedisiyası onlara verilmiş imtiyaz məktubundan istifadə edərək Səfəvilər dövləti ilə əlaqələri daha da genişləndirmək məqsədi daşıyırdı. Ekspedisiya üzvləri 1563-cü il avqustun 4-də Xəzər sahillərinə çatmış və 21-də Şamaxıya gəlmişdir.

Riçard Çinin "...Saraya gəldikdən sonra biz kralın yanına çağırıldıq. Bütün əyanlar kralın ətrafında oturmuş və yerə xalça döşənmişdi. Kral hamıya, o cümlədən bizə harada oturmağı göstərdi" təsvirlərdən göründüyü kimi, Abdulla xanın Moskva şirkətinin nümayəndələrini mehribanlıq və təmtəraqla qarşılaması bir daha onun bu əlaqələrin inkişaf etdirilməsinə olan razılığını və eyni zamanda marağını ifadə edir ki, bu haqda sonra bəhs edəcəyik.

Bir müddət Şamaxıda ticarət etdikdən sonra ekspedisiyanın başçısı Tomas Olkok oktyabrın 22-də Qəzvinə yola düşdü. Çini isə Şamaxıda qalaraq Şamaxı əyanları tərəfindən alınmış malların pulunu toplamalı idi. Lakin borcları toplamaq olduqca çətin idi. Qəzvindən qayıtdıqdan sonra Olkok birbaşa Şamaxı yaxınlığındakı "Lyuvanta" adlı şəhərdə olan Abdulla xanın yanına getmiş və əyanların öz borclarını qaytarmasını xahiş etmişdir. Lakin bu zaman rus tacirlərindən biri Qəzvinə gedərkən toqquşma zamanı yerli adamlardan birini öldürmüş və Abdulla xan bundan xəbər tutduğuna görə o, dərhal öz mallarını yola salmışdır (Cherkashino, 1953).

Bu səyahət zamanı ekspedisiyanın rəisi təyin edilmiş Tomas Olkok Qəzvindən Şamaxıya gələrkən yolda öldürülür. Onun öldürülməsi ekspedisiyanın işlərinin demək olar ki, dayanmasına səbəb olur. Bundan sonra şirkətin yalnız bir xidmətçisi Riçard Çini Şirvanda demək olar ki, yeganə əcnəbi tacir idi. O yazır: "Tomas Olkokun ölümündən sonra məndən başqa bu ölkədə heç bir başqa dinli insan qalmamışdı." Rusların təcili olaraq tabelərində olan malları dənizlə göndərdiyini görən Çini əlində çoxlu miqdarda malların məhv ola biləcəyindən qorxaraq Rusiyaya göndərir. Sonrakı III ekspedisiyada Tomas Olkokun ölüm səbəblərindən bəhs edən Eduards yazır: "...Tomas Olkokun ölümü ilə bağlı bütün həqiqətlər məlum deyil. Bəziləri hesab edir ki, qətl borclarını ödəmədikləri üçün Olkokun təzyiqinə məruz qalan yerli əyanlar tərəfindən törədilib. Digərləri isə hesab edir ki, əsl həqiqətdə Olkok hökmdarın hüzurundan gedərkən özü ilə çoxlu pul apardığını fikirləşən fırıldaqçılar onu pusaraq öldürmüşlər" (Makhmudov, 1985).

Çinninin məlumatına görə ekspedisiya öz fəaliyyəti zamanı müxtəlif çətinliklərə məruz qalmışdır. Əvvəl o, malları yola saldıqdan sonra 6 həftə Şamaxıda qalmış və böyük çətinliklərlə 1 500 manat məbləğində borcları toplaya bilmiş, lakin bu pulu və aldığı malları Moskvaya gətirə bilmiş və Qolverə təqdim etmişdi. Bundan əlavə, Çini fərdi ticarət və bunun nəticəsində şirkətə dəyən zərərdən ciddi şikayət edirdi. Çini öz hesabatında yazırdı ki, bu səyahət nəticəsində Qolver 100 manat, Riçard Conson adlı bir nəfər 20 manat, Tomas Pet adlı bir nəfər 50 manat, İvan Çeremisen adlı bir nəfər 70 manat qazanc götürmüşdür. Bundan əlavə, Çinninin fikrincə, bu səyahətdə Rus çarı da maraqlı idi və çox güman ki, qoyduğu məbləğdən iki və hətta üç dəfə artıq qazanmışdır. Həm də Çinninin fikrincə, başqa fərdi tacirlər kimi qarşıda ekspedisiyanın xərclərinin xeyli hissəsini ödəməmiş, deməli, çarın və fərdi ticarətçilərin xərci əlavə yük kimi şirkətin üzərinə düşmüşdür. Beləliklə, Çini göstərirdi ki, onların çəkdiyi zəhmətin bəhrəsini başqaları götürdü və ona görə də fərdi ticarətə və möhtəkarliyə

son qoymasını tələb edirdi. İngilis tarixçisi Villam yazır ki, bu səyahət nəticəsində ingilis tacirlərinin xeyli xam ipək gətirməsinə baxmayaraq, bu səyahətin şirkət üçün nə dərəcədə gəlirli olduğunu demək çətindir. Lakin o, burada qeyd edir ki, bütün göstərilən çətinliklərə baxmayaraq Çini həmin ticarəti davam etdirməyi və onu "bütün ədviyyatın gətirildiyi" Gilan əyalətinə genişləndirməyi tövsiyə edirdi (Cheinie recommended a continuance of Persian trade and its extension to the province Gihlan, "All spices be brought").

Çini sonralar tərtib etdiyi gündəliyində yazırdı ki, mənim şəxsi fikrimcə, belə səyahətləri davam etdirmək lazımdır, həmçinin bunu indiyə qədər ticarət etmədiyimiz Gilan Krallığı ilə ticarəti davam etdirmək lazımdır. Qəzvin və Hörmüzə yaxın olan Gilanda hər cür ədviyyat malları tapmaq olar. Çini burada ticarət təşkil etməyi lazım bilirdi, eyni zamanda xəbərdarlıq edirdi ki, buraya R. Censon kimi pozğun və sərxoşluqla məşğul olan adamlar göndərilməsin, çünki bu, bir tərəfdən ingilis tacirlərinin nüfuz və şöhrətini azaldır, ikinci tərəfdən isə belə adamlar göndərilsə şirkət heç vaxt öz gəlirinin miqdarını müəyyən edə bilməyəcəkdir (Onuilakhi, 1982).

**İngiltərənin Səfəvilər dövləti ilə əlaqələrinin genişlənməsi**

***a) Moskva şirkətinin Azərbaycana üçüncü və dördüncü ekspedisiyaları***

Artıq qeyd etdiyimiz kimi, Azərbaycana göndərilən ilk ekspedisiyalar ingilis tacirləri üçün çox əhəmiyyətli oldu. Təkcə I ekspedisiya nəticəsində 40 000 livr dəyəri olan mal aparılmış, lakin bunun bir hissəsi yolda kazaklar tərəfindən qarət edilmişdi. İngilis tarixçisi, professor Skott belə hesab edir ki, Rusiyaya ilk səyahət şirkətə xeyli ziyan vermişdir ki, bu da İran ekspedisiyalarının gəlirləri hesabına ödənilmişdir. Moskva şirkəti yaxşı başa düşürdü ki, Səfəvilər dövləti ilə ticarəti davam etdirməyə layiqdir. İngilis tacirləri üçün cənub okean yoluna nisbətən Volqa–Xəzər ticarət yolunun üstünlükləri ondan ibarət idi ki, əvvəldən ingilislər bu yol vasitəsilə türklər, venesiyalılar, portuqaliyalılar, isveçlər, polyaklar, danimarkalılar və s. tərəfindən onlar üçün qorxulu olan rəqabətə rast gəlmədən maneəsiz surətdə Rusiya və bir sıra Şərq ölkələrinin zəngin bazarlarına daxil ola bilirdilər. İkincisi, bu yoldan istifadə etməklə ingilislər özlərinə lazım olan Şərq mallarını bilavasitə Şərq tacirlərindən və yerli əhalidən daha ucuz qiymətə ala bilərdilər. Üçüncüsü, şimal yolu nisbətən daha qısa və daha təhlükəsiz idi. Nəhayət, dördüncüsü, bu, cənub okean yoluna nisbətən 2–3 dəfə ucuz başa gəlirdi.

1565-ci ilin yazında üçüncü ekspedisiyanın təşkili üçün hazırlığa başlandı. Bu işə şirkətin Moskvadakı agenti T. Qolver başçılıq edirdi. Bu ekspedisiyanın təşkili şirkətin fəaliyyətində yeni mərhələni təşkil edir. İndi şirkətin başlıca məqsədi Səfəvilər dövləti ilə ticarət əlaqələrini genişləndirmək və müntəzəm qaydaya salmaq, bu ölkədə öz mövqelərini möhkəmləndirmək idi. Əvvəlcə ekspedisiyaya başçılıq etmək Səfəvilər dövlətində agent vəzifəsinə təyin olunmuş Eduard Klarka tapşırılmışdır. Lakin Klark yola düşməzdən əvvəl qəflətən vəfat etdi və onu Riçard Conson əvəz etdi. A. Kitçin və şirkətin üzvü A. Eduards bu ekspedisiyada şirkətin assisentləri kimi iştirak edirdilər (Christopher, 2000).

Ekspedisiyanın iştirakçıları xüsusi olaraq Azərbaycan səyyahları üçün düzəldilmiş 30 tonluq kiçik gəmidə 1565-ci ilin may ayında Yaroslava gəldilər.

Hələ III ekspedisiya yola düşməzdən əvvəl şirkətin idarə heyəti Volqa–Xəzər yolu ilə yük daşımaq üçün xüsusi gəmi qayrılması haqqında düşünürdü. Ekspedisiya iştirakçılarından biri olan A. Eduards 1565-ci ilin mayın 15-də Yaroslavda şirkətin idarə heyətinin katibi Tomas Nikolsun ünvanına göndərdiyi məktubda qeyd edirdi ki, şirkətin malını və yükünü daşımaq üçün qayrılmış 30 ton tutumu olan gəmi olduqca kiçikdir. Buna görə də Eduards 60 ton və daha çox tutumu olan gəmilər hazırlanması üçün Yaroslava gəmiqayırma ustaları göndərilməsini təklif edirdi. Onun fikrincə, beş gəminin hazırlanması çox faydalı olardı. Çünki şirkətin öz malı az olduqda gəmi yerli tacirlərə xidmət edə bilərdi, yerli tacirlər onların yükünü daşımaq əvəzində fraxt verməyə həvəslə razılaşırdılar. Eduards belə hesab edirdi ki, əgər gəmi qayrılsaydı, şirkətin yol xərcləri xeyli azalar, xidmətçiləri və daşınan yükün təhlükəsizliyi xeyli təmin olunardı. Çünki Eduardsın fikrincə, yerli gəmilər Xəzər dənizində üzmək üçün çox təhlükəsiz idilər. Yaroslava yola düşərkən gəmidə ekspedisiya başçılarından əlavə 4 ingilis dənizçisi və 32 yük karzeya vardır (Shamkhaliyev, 1958a).

Beləliklə, 1565-ci ildə Səfəvilər dövlətinə Moskva şirkətinin növbəti, üçüncü ekspedisiyası başlamışdır. Bu, Artur Eduards və Aleksandr Kitçen daxil idi. Səyahət zamanı oktyabrın 23-də xidmətçi Riçard Conson və dənizçi Riçard Devis həlak olmuşdur. Bu ekspedisiya əsasən Artur Eduardsın şirkətin katibi Tomas Nikolsa 1565-ci il iyulun 26-da və 1566-cı il avqustun 8-də ünvanladığı məktublarda ətraflı təsvir edilmişdir (Ashurbeyli, 1992).

Bu ekspedisiyanın məqsədi artıq əsası qoyulmuş İngiltərə–Səfəvi əlaqələrini genişləndirmək və ingilis tacirləri üçün yeni imtiyaz fərmanları almaqla təhlükəsiz, güzəştli ticarət mühiti yaratmaqdan ibarət idi. Artur Eduards bu haqda yazır: "...Allahın köməkliyi ilə biz şahdan (Şah I Təhmasib — T.B.) arzu olunan imtiyazları və fərmanları alacağıq. ...Mən şübhə etmirəm ki, imtiyaz əldə olunarsa, biz rahatlıq əldə edəcək və tezliklə xam ipək və ipək məhsulları, hər növ ədviyyat ilə bərabər digər yerli mallar alıb-satan böyük firmaya çevriləcəyik." Onlar həmçinin bu şəraitdə Səfəvilər dövlətinin sərhədləri hüdudunda ipəyin və digər Şərq mallarının daha ucuz və keyfiyyətli olduğu yerlərə, xüsusilə Gilan və Hörmüzlə ticarətə can atırdılar. Bunu Eduardsın məktubundan götürülmüş fikirlər "...Həştərxandan Gilan adlı vilayətə dənizlə 7–8 günə getmək olar. Zənnimcə, gələcəkdə ora getmək bizim xeyrimizə olacaq." bir daha təsdiq edir. Sonra o, Gilanla ticarətin üstünlüklərindən bəhs edərək yazır: "...Orada kavasi çox ucuzdur. Şamaxıya onu Gilandan gətirib satırlar ki, burada bizim pulla 5 pens edir. ...Gilanda şirkətin mal ehtiyacını ödəmək üçün kifayət qədər xam ipək var. ...Oradan Qəzvinə dörd günlük yoldur" (Azerbaydzhan tarizht uzre gaynaglar, 1989).

Sentyabrın 11-də Şamaxı şəhərinə gələn ingilis tacirlərini 17-də Şirvan hakimi Abdulla xan təmtəraqla qəbul etmişdir. Bu görüşlə Abdulla xan Şirvanda ingilis tacirlərinə işləmək üçün hər cür şərait yaradacağını, "...bizə ziyan vuran bir adam görsə, digərlərinə dərs olsun deyə onu cəzalandıracaq. Beləliklə, biz sakit yaşayacaq və şikayətlənməyə heç bir şey olmayacağını" bəyan etmişdir. O həmçinin tacirlərə ölkəsi ilə bağlı istəklərini və problemlərini yazılı şəkildə qeyd edərək ona verməyi tapşırmışdır. Fikrimizcə, bu təklifin reallaşacağı təqdirdə Abdulla xan ingilis tacirləri vasitəsilə onlara verdiyi imtiyaz fərmanlarına yerli məmurların necə riayət etməsini öyrənəcək, yaranacaq problemləri həll edəcək, həmçinin ingilis tacirlərinə olan borcların yığılmasına da dəstək verə bilərdi. Eduards daha sonra yazır: "...Biz onu etməyə hazırlaşan zaman keçən oktyabrın 2-də Allah dostumuz kralın yer üzündə sürdüyü həyata son qoydu. Onun olmaması nəticəsində biz hələ də o vaxtdan bəri borclarımızı ala bilməmişik" (Yefendiyyev, 1993).

Qeyd etmək lazımdır ki, 1549-cu ildən Şirvan bəylərbəyi olan Abdulla xan Ustaclı hakimiyyətə gəldikdən sonra özündən qabaqkı bəylərbəyi Əlqas Mirzənin (I Təhmasibin qardaşı, Şah İsmayılın ikinci oğlu) tərəfindən qaldırılmış üsyanı yatırıldıqdan sonra Şimali Azərbaycanda qayda-qanun yaradıb mərkəzi hökumətlə əlaqəni gücləndirmişdir. Bununla yanaşı, nüfuz qazanaraq ölkəni demək olar ki, müstəqil idarə etməyə başlamışdır. Onun İngiltərə dövlətinin ticarət şirkətinə "öz adından" imtiyazlı fərman verməsi, Rusiya çarı İvan Qroznının yanına yenə öz adından elçilər göndərməsi və başqa faktlar bunu göstərir. Professor Süleyman Əliyarlı qeyd edir ki, ola bilsin bu faktların arxasında Abdulla xanın Şirvanı tam müstəqil dövlətə çevirmək istəməsi dururdu. Hər halda İngiltərə təbəəsi, inanılmış Antoni Cenkinsona "ən gizli ürək sirlərini" Moskva çarına bildirməyi tapşırması və oraya özünün yeni elçisini göndərməsi təsadüfi deyildi. Abdulla xan sözün əsl mənasında ingiltərə tacirlərinin Azərbaycanda fəaliyyət göstərməsi və bu əlaqələrin yaranmasında ən mühüm simalardan biri idi. Moskva şirkətinin xidmətçiləri onu özlərinə ən yaxın himayədar hesab edirdilər. Təsadüfi deyil ki, II ekspedisiya zamanı öldürülmüş Tomas Olkokun borclarından bəhs edən Artur Eduards yazır: "Tomas Olkokun borclarına gəlincə, onları almağa heç bir ümidi yoxdur. Lakin onlar itirilməyə bilərdi, əlbəttə, əgər hökmdar sağ olsaydı. İnanırıq ki, onun yerinə Allah bizə onun qədər rəhmdil hökmdar göndərəcək. Deyilənlərə görə, etibarlı mənbədən verilən məlumata görə hökmdarın Mirzə adlı oğlu olacaq.

1566-cı il aprelin 29-da Moskva şirkətinin Səfəvilər dövlətinə gəlmiş III ekspedisiyanın üzvlərindən Artur Eduards Şah Təhmasib tərəfindən qəbul olunmuşdur. Bu görüşdə şah tacirlərə imtiyaz fərmanlarını verəcəyini vəd etmiş, onlara İngiltərə, İngiltərə–Rusiya əlaqələri və beynəlxalq vəziyyət haqqında fikir mübadiləsi aparmışdır. Görüşün sonunda şah öz katibinə tapşırmışdır ki, ona

lazım olan malların, xüsusilə yaxşı tikilmiş London mahudunun hər növündən bir top gətirmək üçün siyahı hazırlasın.

Qeyd etmək lazımdır ki, həmin il iyunun 29-da Şah Təhmasib Artur Eduardsı yenidən qəbul etmiş və Moskva şirkətinə ünvanladığı yeni imtiyazlar fərmanını ona təqdim etmişdir. Artur Eduards bu görüş haqqında bəhs edərək yazır: "...Həmin gün mən arzu etdiyim kimi sizin üçün imtiyaz fərmanı aldım. Fərman möhürlü idi və şahın imzası ilə təsdiqlənmişdi. ...Şah mənə dedi ki, aldığım fərmanda nə isə xoş gəlməsə, onları dəyişdirmək mümkün olacaq. Cavabımda mən ona təzim etdim və əlahəzrətə ən səmimi və xoş arzularımı yetirərək dedim ki, çox tez bir zamanda Ülyahəzrət kraliçamız bizə göstərdiyiniz xeyirxahlıq barədə biləcək." (Mugalinskiy, 1997).

*Şah Təhmasibin yuxarıda göstərilən fərmanına əsasən ingilis tacirləri — ser Uliyam Harrard, ser Uliyam Çester, ser Tomas Lodc, cənab Antoni Cenkinson, cənab Tomas Nikols və Artur Eduardsa Səfəvilər dövləti ərazisində, o cümlədən Azərbaycan torpaqlarında aşağıdakı ticarət imtiyazları verildi (Makhmudov, 1980):*

1. Onlara "şahın hakimiyyəti dövründə və gələcəkdə onun varislərinin zamanında hər cür gömrük və rüsumlardan azad olunmaq hüququ bəxş edilir", ingilislər "ticarət məqsədilə, sərbəst surətdə, istədikləri adamların müşayiəti ilə məmləkətin bütün şəhərlərinə, şahın bütün mülklərinə gedə bilər, istədikləri malları alıb-sata bilərlər".
2. "İngilis tacirlərinin gedəcəyi və qalacağı bütün şəhərlərin baş canişinləri, yerli hakimləri və məhkəmə hakimləri onları himayə etməli, hər cür kömək göstərməli, arzuolunmaz adamlardan qorumalı, onlara hər hansı zərər vuran şəxsləri cəzalandırmalıdırlar."
3. İngilislərdən "hər hansı məbləğdə pul almış şəxslər, kimliyindən asılı olmayaraq borcunu vaxtında ödəyə bilmədikdə məhkəməyə cəlb olunmalı və elə həmin gün də borcunu ödəməlidir."
4. "Kompaniya üzvlərinin icazəsi və razılığı olmadan heç bir kəs, mövqeyindən və ad-sanından asılı olmayaraq, haqqını ödəmədən ingilislərdən hər hansı mal və hədiyyə almağa cəsarət göstərə bilməz."
5. "İngilis tacirlərindən və ya kompaniyanın xidmətçilərindən biri, hər hansı təsadüf üzündən, şahın təbəələrindən kimsəni öldürərsə, bu işə görə şirkətin mallarına toxunulmamalı, təqsirkardan başqa heç kəs məsuliyyət daşımamalıdır; təqsirkar üzərində ədalət məhkəməsi qurulmalı, həm də hökmdarın xəbəri və icazəsi olmadan cəzalandırılmamalıdır."
6. "Kompaniya üzvlərinin verdikləri və gələcəkdə verəcəkləri borc onlardan hər hansı birinə digərinin iştirakı olmadan, həm də sonuncunun sağ olub-olmamasından asılı olmayaraq ödənilməlidir."
7. "Heç kimin alınmış və satılmış hər hansı bir malı geri qaytarmağa haqqı yoxdur."
8. Kompaniyanın malları "dəniz sahilinə çıxarıldıqda şahın təbəələri bu malların quru yolla daşınmasına kömək göstərməlidirlər."

Artur Eduards qeyd edir ki, "bu fərman dörd nüsxədə, ikisi isə mənim xahişim ilə sizə göndərmək üçün türk dilində yazılmışdır. Nüsxələrdən birinin arxasında əlahəzrətin almaq istədiyi malların siyahısı verilib." Qəzvindən Şamaxıya gələn Eduards burada hökmdarın olmamasından, "...hökmdarın yaxud rəhbərin olmaması ilə bağlı olaraq bu ölkədə işlər möhkəm deyil" ifadəsini işlədərək, buna görə də yaranmış qeyri-müəyyənlikdən şikayətlənir. "...Rəhbər isə zənnimizcə, Mirzə olacaq. Beş-altı gündən sonra biz bunu biləcəyik. Artıq vaxtdır, çünki adamlar talanmaq qorxusuna görə səfərə çıxmaq istəmirlər." Belə şəraitdə onu daha çox narahat edən isə borclarını geri ala bilməməsi idi. Səyyah yazır: "Əgər bura rəhbər təyin olunsaydı, mən tezliklə sizin borclarınızı alardım, çünki onlar şah tərəfindən verilən imtiyaz fərmanına sayqısız yanaşmağa cürət etməzdilər" (Azerbaydzhan tarikht. 7-childde. III ch., 2000).

1568–1569-cu illərdə tərkibində Artur Eduards (artıq ikinci dəfə), Con Spark, Lorens Çepmen, Xristofor Fouset və Riçard Pinqlın daxil olduğu ingilis tacirlər dəstəsi dördüncü dəfə Azərbaycana gəldi.

Lorens Çepmenin 1569-cu il aprelin 28-də Londona yazdığı məktubda yazır: "...1568-ci ilin iyununda Yaroslavldan çıxaraq avqustun 14-də Sizin 'Allahın mərhəməti' (Grace of God) gəmisində limana çıxdıq. ...Sentyabrın 1-də Şamaxıya çatdıq." Bir müddət sonra Artur Eduards, Con Çepmen

malların böyük bir hissəsini götürərək Qəzvinə gedirlər. Xristof Fouset və Riçard Pinql isə bir qisim malla "350 top karazeya ilə" Şamaxıda qalır və belə hesab edirlər ki, ya orada, ya da Ərşdə satmaq mümkün olacaqdır.

Qeyd etmək lazımdır ki, bu səfər zamanı Artur Eduards yenidən Şah Təhmasib tərəfindən qəbul edilmişdir. Görüşdə şah ingilis taciri ilə bir çox məsələlər, o cümlədən İngiltərə dövləti, onun adətləri, kraliçası və Rusiya ilə ticarət münasibətləri haqqında fikir mübadiləsi aparmışdır. Eduardsın onun ölkəsinə gəlməsinin əsas səbəbinin ticarət əlaqələri qurulması olduğuna əmin olan şah ondan Səfəvilər dövlətinə hansı malları gətirəcəklərini soruşmuşdur. Eduards isə cavabında "...venesiyalıların gətirdiyi mallardan" söyləmiş və venesiyalıların öz mallarını Londondan Venesiyaya, oradan isə Türkiyəyə, Suriyaya, Hələbə və Tripoliyə gətirdiklərini əlavə etmişdir. O, bununla da şaha bildirmişdir ki, mallar yuxarıda sadalanan ölkələrdən ikinci, üçüncü əllərdən keçərək bir neçə dəfə gömrük rüsumuna məruz qalır və nəhayət Səfəvilər dövlətinə daha baha qiymətə gətirilir. Artur Eduardsın peşəkarlıqla aydın və məntiqli məlumatları Şah Təhmasibi maraqlandırmış və bu malların nədən ibarət olması barədə Eduardsa müraciət etmiş, səyyah isə bu malların "...böyük miqdarda karazeyadan, müxtəlif rəngli — qırmızı, bənövşəyi zərif" gətirilmələrini və öz yunları ilə qarışdıraraq zərif mahud istehsal etmələri haqqında geniş məlumat vermişdir. O, şaha bildirmişdir ki, bu yolla İngiltərədən 200 min topdan çox mahud və karazeya gətirilir. İngiltərə tacirləri ilə ticarətin onun ölkəsi üçün üstünlükləri haqqında kifayət qədər məlumatlanan şahın bu malları İngiltərədən Səfəvilər dövlətinə hansı vasitələrlə gətirməyin mümkünlüyü barədə sualına Eduards "...Moskva ərazisindən, özü də Venesiya, oradan isə Türkiyə vasitəsilə İrana (Səfəvilər dövlətinə — T.B.) gətirən venesiyalılara nisbətən çox təhlükəsiz və qısa müddət ərzində gətirmək olar" demişdir. Onlara bütün bu işləri həyata keçirmək üçün şahın imtiyaz fərmanına ehtiyac olduğunu əsaslandırmağa çalışan səyyah daha sonra demişdir: Məhz buna görə də əgər zati-aliləri bizə sizin məmləkətinizdə sərbəst gediş-gəliş üçün imtiyaz versə, həyatımızın, əmlak və mallarımızın təhlükəsizliyi təmin olunarsa, biz sizin ölkəyə bu və ya digər malları daha tez və ucuz gətirərik nəinki türklər (Shamkhaliyev, 1958b)."

Beləliklə, yenidən Eduardsın fəallığı sayəsində Şah Təhmasib şirkətin nümayəndəsi Lorens Çepmenə ingilis tacirləri üçün yeni ticarət imtiyazları bağışladı.

Artur Eduardsın xəbər verdiyi kimi, Lorens Çepmenə verilmiş imtiyazlarda belə bir maraqlı bənd də var imiş ki, əgər şirkətin qulluqçularından xristian olan kimsə öz etiqadını dəyişmək və islamı qəbul etmək istəsə, o, şirkət tərəfindən cəzalandırıla bilər. Eduardsın sözlərinə görə Səfəvilər dövlətində ingilislərin vəziyyəti o vaxtadək narahat və təhlükəli idi. Məsələn, əgər yadelli bir təsadüf üzündən "yerlini" öldürərdisə, öldürülənin əvəzinə iki nəfərin həyatı tələb edilirdi. Yadellinin borcu əvəzinə həmin millətdən olan bir adamın əmlakını mənimsəmək və digər sərbəstliklərə yol vermək olardı. Fərmanın əhəmiyyətindən bəhs edən səyyah daha qeyd edir ki, sufi bizə mülayim münasibət göstərməyənə və imtiyazlar verməyənə qədər yerli sakinlər ingilislərə pis rəftar edir və nifrət edərək əl belə toxunmurdular, onları kafir yaxud gavur-dinsiz, imansız adlandırırdılar.

Nəticə olaraq, Moskva şirkətinin Səfəvilər dövlətində öz mövqelərini getdikcə möhkəmləndirdiyi bir zamanda Rusiya ilə əlaqələri xeyli pisləşmiş, şirkətin əmlakı və hüquqları təhlükə qarşısında qalmışdı. Bir tərəfdən Narvada şirkətin öz xidmətçilərindən olan Rütter və Qloverin şəxsində ciddi rəqibləri meydana gəlmişdi. Bunlar şirkətin başqa xidmətçisi Çappelin vasitəsilə İngiltənin Almaniyada və Lübekdə ticarət ilə məşğul olan digər bir şirkətə mənsub olan tacirlərlə bilavasitə əlaqəyə girmişdilər ki, bu da Moskva şirkətinin mövqeyini sarsıdırdı. Digər tərəfdən isə kraliça I Yelizavetanın açıq-aşkar siyasi ittifaq bağlamaqdan çəkinməyə çalışmasından narazı qalan çar IV İvan şirkətin rəqiblərinə himayəçilik göstərir və şirkətin bütün imtiyaz və üstünlüklərini əlindən almağa meyl edirdi. Rusiya ilə ticarətdən əldə etdiyi gəliri itirməkdən qorxuya düşən şirkət kraliçanın kömək göstərməsini xahiş edirdi. Bundan əlavə, şirkətin Səfəvilər dövləti ilə əlaqələrini davam etdirməsi də bilavasitə Rusiya çarından İngiltərə tacirləri üçün çox əlverişli imtiyazlar ala bilmişdir, çünki hələ IV İvan İngiltərə ilə ittifaq bağlamaq ümidlərini itirməmişdi. 1569-cu ildə alınan bu imtiyazlar şirkətin Rusiyada ən yüksək nailiyyəti hesab edilir. Bu müqavilə şirkət üçün iki cəhətdən əhəmiyyətli idi: birincisi, ingilis tacirlərinə bir sıra iqtisadi üstünlükləri, hüquqları və Rusiya dövlət orqanlarına münasibəti məsələləri həll olunurdu.

Ekspedisiya 1569-cu ilin mayında yola düşməyə hazırlaşırdı, lakin onlar Randolf yeni imtiyazlarına qədər Rusiyada qaldılar. İngilislərin Tomas Benister və Ceffri Deketin başçılığı ilə 1569-cu ildən 1574-cü ilə qədər Səfəvilər dövlətinə təşkil olunmuş beşinci ekspedisiya istər zaman, istərsə də ticarətin həcmi etibarı ilə Moskva şirkətinin fəaliyyətində ən əhəmiyyətli və ən yüksək nöqtə idi. Əgər o vaxta qədər ingilis tacirlərinin fəaliyyəti Azərbaycanın və İranın qonşu vilayətinin ərazisi ilə məhdudlaşırdısa, bu dəfə ekspedisiya üzvləri Cefri İran şəhəri Kaşana ticarət səfəri etdi. Bu ekspedisiya nəticəsində bir tərəfdən isə bu ticarətlə əlaqədar olan çətinliklər daha qabarıq şəkildə aşkara çıxdı. Belə ki, Həştərxana yaxınlaşarkən ekspedisiya Noqayların hücumuna məruz qaldı, xeyli vuruşmadan sonra ekspedisiya iştirakçıları təhlükədən qurtula bildilər. Daha sonra ekspedisiya iştirakçıları Həştərxanda xeyli ləngiməli oldu. Səfəri təsvir edən Layonel Plemtrinin məlumatına görə bu zaman 70 minə qədər türk və tatar qoşunları Həştərxanı mühasirə etmiş və yalnız 1569-cu ilin oktyabrında geri çəkilmişdilər. Yalnız bundan sonra ekspedisiyanı davam etdirən ingilis tacirləri oktyabrın sonunda Bilbilə (indiki Bilgəh) çatdılar və oradan Şirvana yola düşdülər. Qışı Şamaxıda keçirən tacirlər oradan Ərdəbilə yollandı. Ərdəbildə beş-altı ay yaşayan tacirlər burada bir çox sövdələşmələr və alqı-satqı edirlər. Lakin onlar bu şəhərdə artıq qalmağı faydasız hesab edir, şəhərdə olan ticarət imkanlarından razı deyildilər. Onlar bunu şəhərdə tacirlərdən daha çox zadəganların yaşamasında, həmçinin şəhərdə olduqları zaman baş verən qanlı hadisələrlə əsaslandırırdılar.

Şah Təhmasib Ərdəbilə çapar göndərərək ingilis tacirlərini Qəzvinə dəvət etmişdir. Ekspedisiya üzvü Cefri Deketin xəstə yatmağına baxmayaraq, bu dəvətdən dərhal sonra Tomas Benister şahın qəbuluna gəlmişdir. Layonel Plemtrinin məlumatına görə, Benisteri böyük ehtiram və xüsusi nəvazişlə qəbul edən şah onun bütün arzularını, biri istisna olmaqla, yerinə yetirdi. Benister şahdan Səfəvilər dövlətinin ərazisindən Hindistana bir neçə at aparmağa icazə verməyi xahiş edəndə şah ona o qədər də izin vermək istəmişdir. Ancaq şah bunu birbaşa rədd etməmiş, gələcəkdə müzakirə oluna biləcəyini söyləmişdir. Lakin əslində Səfəvilər dövlətinin feodal və tacir dairələri, istərsə də şah hökuməti ingilis tacirlərinin Hindistan ticarətini ələ keçirmək təşəbbüsünə yol verə bilməzdi, çünki onlar özləri bu ticarətdə vasitəçilikdən böyük fayda götürürlər. Buna baxmayaraq ingilis tacirləri gizli şəkildə belə bir təşəbbüs etmək niyyətində idilər. Belə bir təşəbbüsün baş tutması şirkətin ilk planlarının həyata keçirilməsi demək olardı. Bu vaxt Plemtri bir sıra Buxara tacirlərinin məsləhəti ilə səfər üçün hazırlıq görərək gizli surətdə Çinə yola düşən ekspedisiyaya qoşuldu. Lakin bundan xəbər tutan Şamaxı bəylərbəyi Araz bəy Sultan dərhal onun dalınca əlli nəfərdən ibarət atlı dəstə göndərmiş və geri qaytarmışdır.

Qeyd etmək lazımdır ki, Plemtri bilavasitə şirkətin öz xidmətçisi Xemfri Qrinsell tərəfindən qaytarılmışdır, görünür, Qrinsell şahın narazılığından və bunun şirkət üçün verə biləcəyi nəticələrdən qorxurdu (Yefendiyyev, 1981).

Tomas Benister Qəzvində altı ay qalandan sonra Təbrizə getmiş və burada xəstələndiyinə görə Ərdəbildə qalan Ceffri Deketlə görüşmüşdür. Qeyd etmək lazımdır ki, Deket Təbrizdə iki il yarım yaşayaraq şirkətin gətirdiyi ingilis mallarını satmışdır. Bundan sonra Tomas Benister İngiltərə üçün aldığı malları göndərərək Təbrizdən Şamaxıya gəlmiş, malları yola saldıqdan sonra xam ipək almaq üçün Ərşə getmişdir. Lakin onlara bədbəxtlik baş verdi. Belə ki, Ərşdə olan qeyri-sabit və isti hava, iylənmiş su və s. kimi səbəblərdən Tomas Benister, Loven Çepmen və onlarla birgə olan digər ingilislər vəfat etdilər. Bundan xəbər tutan Deket Təbrizdən Ərşə yollandı ki, gedib mallara yiyə dura bilsin, əks halda, əgər mərhumun mallarına sahib çıxacaq bir dostu və hər hansı bir tacir yoldaşı yoxdursa, o zaman əmlak şahın ixtiyarına keçir. Deket Ərşə gedənə qədər mallar əyanlar tərəfindən qəsb edilmişdi və o, şahın qəbulunda olaraq onların geri qaytarılması ilə bağlı fərman verilməsinə nail olmuşdu. Sonra Deket Kaşana, "müstəsna şəkildə ticarətlə nəfəs alan" şəhərə getmək üçün Qəzvindən Şamaxıya qayıtmış və oradan özü ilə ticarət məqsədilə pul yükləmiş dörd qatır götürərək yola düşmüşdü. Kaşanda ticarətin azlığından bəhs edən tacir bunun səbəbini ora Hind tacirlərinin gəlməsi ilə izah edərək buradan bir çox ipək parça növləri, o cümlədən müəyyən miqdarda ədviyyat aldıqlarını qeyd edir.

On gün Kaşanda qalandan sonra ingilis tacirləri Şamaxıya qayıtdılar və bir sıra yerlərdə xam ipək və digər mallar almaq üçün dayandıqdan sonra gəmilərinin dayandığı Şirvana (Sharavan) gəldilər. Onlar mallarını gəmilərinə yüklədikdən sonra 1572-ci il mayın 28-də Həştərxana yola düşdülər ().

Mayın 28-də dəniz küləkli olduğu üçün dayaz sularda lövbər salan ingilis tacirlərinin gəmisinə kazaklar tərəfindən təzyiqlər edilir və gərgin döyüşdə qarətçilərin onlara toxunmayacağına söz verəndən sonra gəmini kazaklara təslim edirlər. Kazaklar onlara iki gəmi qayığı verərək tələsik Həştərxana yola saldılar. Həştərxana gələn Deket hökmdara müraciət edərək onun kazaklara qarşı qüvvə göndərməsinə nail olur. Kazaklarla gərgin mübarizədən sonra tacirlər mallarının bir hissəsini geri qaytarır, yaralı adamlarının sağalmasına görə iki ay Həştərxanda qalırlar. Bir qədər qüvvə topladıqdan sonra ingilis tacirlər kazaklardan geri qaytardıqları mallarla birlikdə İngiltərəyə getmək üçün Yaroslava doğru yola düşdülər (Makhmudov, 1996).

Qeyd etmək lazımdır ki, bu vaxt Moskva şirkəti yenidən ciddi çətinlik qarşısında qalmışdı. Siyasi ittifaq bağlamaq ümidi ilə 1569-cu ildə ingilislərə geniş imtiyazlar ləğv etmişdi. Məlum olduğu kimi, 1571-ci ilin iyun ayında şirkətin tacirləri öz mallarının bir hissəsini Həştərxana yola salmışdı. Həmin mallar burada çar məmurları tərəfindən saxlanılmış və bunlardan xeyli gömrük haqqı alınmışdı. Bundan əlavə, çarın məmurları gəmilərin geri qayıdıb qalan malları gətirilməsinə icazə vermədilər. Buna cavab olaraq kraliça I Yelizaveta Antoni Cenkinsonu yenidən Rusiyaya göndərdi. I Yelizavetanın çara ünvanlanmış məktubunda göstərilirdi ki, ingilis tacirləri Həştərxanda çarın kapitanları tərəfindən ləngidilir ki, bu da həmin tacirlərə böyük ziyan verir. Daha sonra kraliça yazırdı ki, "...yaxınlarda bizim Şamaxıdan gəlmiş tacirlərə əlahəzrətin alıcıları pis münasibət göstərmiş, Qazanda, Həştərxanda və başqa yerlərdə öz malları üçün, onun bir hissəsini satmadıqları halda gömrük verməyə məcbur olmuşlar." Əvvəlcədən hazırlanmış plana görə 1571-ci ilin yazında Səfəvilər dövlətindən qayıtmalı idilər, lakin Rusiyada yaranmış vəziyyət 1571 və 1572-ci illərdə buna imkan vermədi. Şirkətin tacirlərini qarşılamaq üçün göndərilən Vilyam Smit xəbər verirdi ki, şirkətə məxsus olan malları çarın məmurları özlərinə götürmüşlər.

**1579–1581-ci illər ekspedisiyası və İngiltərənin Səfəvilər dövləti ilə ticarət əlaqələrinin kəsilməsi**

Moskva şirkətinin nümayəndələrinin Səfəvilər dövlətinə beşinci ekspedisiyası 1568–1574-cü illəri əhatə edir. Bundan sonrakı beş il ərzində şirkət tərəfindən Azərbaycana ticarət ekspedisiyaları təşkil olunmurdu. Bunun əsas səbəbi isə hər iki ölkənin daxilində cərəyan edən siyasi proseslər idi.

Səfəvilər dövləti ilə Türkiyə arasında kiçik fasilələrlə davam edən müharibələr bir tərəfdən ölkəni var-yoxdan çıxarır, digər tərəfdən isə ölkə daxilində qeyri-sabit vəziyyət yaradırdı. 1576-cı ildə Şah Təhmasibin ölümü ölkədə siyasi vəziyyəti daha da mürəkkəbləşdirdi, feodal çəkişmələrini gücləndirdi. 1576–1581-ci illərdə Təhmasibin üç oğlu şahlıq taxtında bir-birini əvəz etmişdi. Bundan istifadə edən Türkiyə Zaqafqaziyanı və Qafqazın xeyli hissəsini ələ keçirdi. Əlbəttə, belə vəziyyət heç də ticarət əlaqələri üçün əlverişli deyildi. İngiltərənin özündə də siyasi vəziyyət pis idi, İspaniya ilə mübarizə getdikcə gərginləşirdi. 1576–1577 və 1578-ci ildə Frobisherin şimal-qərb istiqamətində yeni ticarət yolu açmaq təşəbbüsü də diqqəti Səfəvilər dövləti ilə ticarətdən yayındırmamışdı. Lakin Moskva şirkəti Azərbaycanla ticarətdən əl çəkmək fikrində deyildi və bunun üçün əlverişli şərait gözləyirdi (Willan, 1956).

Digər tərəfdən, şimal-qərb istiqamətində Frobisherin təşəbbüslərinin uğursuzluğu Moskva şirkətini Səfəvilər dövləti ilə ticarəti bərpa etmək səylərini gücləndirdi.

1579–1581-ci ildə həyata keçirilmiş bu altıncı ekspedisiya bir tərəfdən Moskva şirkətinin İngiltərə hökuməti ilə sıx əlaqədə olduğunu, digər tərəfdən isə bu ticarətlə İngiltərənin təkcə ticarət mənfəəti deyil, başqa ciddi niyyətlərinin də olduğunu göstərir. Bu ekspedisiyanın təşkilində kraliça I Yelizaveta fəal iştirak etdi.

Beşinci ekspedisiyadan keçən müddət ərzində Moskva şirkətinin maliyyə vəziyyətinin xeyli pisləşməsi ilə əlaqədar olaraq kraliça yanında İngiltərə Gizli Şurası şirkətin işlərini qaydaya salmaq üçün xüsusi komissiya təyin etmişdi.

1579-cu ildə başlanan ekspedisiya Artur Eduards, Uilyam Ternbul, Mətvey Teylboys və Petr Harrarda tapşırılmışdı. Ekspedisiya iştirakçıları Səfəvilər şahına kraliça Yelizavetanın məktubunu

apardılar. Bu səfərdə boyaqçı Morqon Hubblethorn da iştirak edirdi. O, Səfəvilər dövlətində boyaqçılıq işini öyrənməli idi. 1579-cu il iyunun 19-da ekspedisiya iştirakçıları İngiltərəni tərk edib həmin il iyulun 22-də Rusiyanın Müqəddəs Nikolay limanına, oktyabrın 16-da isə Həştərxana çatdılar. Burada Həştərxan valisi V.F.Şelepin ekspedisiya başçılarını nahara dəvət etdi və Səfəvilər dövlətində baş verən hadisələr haqqında onlara məlumat verdi. Məlum oldu ki, Krım tatarlarının köməyi ilə türklər Azərbaycanın çox hissəsini ələ keçirmişlər və burada hərc-mərclik hökm sürür. Bu məlumat və həm də qışın yaxınlaşması ilə əlaqədar olaraq ingilis tacirləri qışı Həştərxanda keçirmək və bu müddət ərzində Azərbaycanda vəziyyəti daha dərindən öyrənməyi qərara aldılar.

1580-ci ilin aprel ayında ekspedisiya başçıları qərara gəldilər ki, Artur Eduards malların yarısı ilə Həştərxanda qalsın, qalan üç faktor isə malların digər yarısı ilə Xəzər dənizi vasitəsilə "Midiya" sahilinə səyahətə çıxsın. Şirvan əyalətində sərbəst ticarət mümkün olmadıqda faktorlar cənuba — Gilan əyalətinə hərəkət etməli idilər.

Eyni zamanda yaranmış vəziyyət haqqında İngiltərəyə məlumat vermək və Səfəvilər dövləti ilə ticarət üçün göndərilə biləcək mallar Rusiyada saxlanılma məqsədilə şirkətin xidmətçiləri Amos Rayyal və Antoni Marş geri — Yaroslavla göndərildi. 1580-ci il mayın 2-də ekspedisiya Həştərxandan yola düşdü və mayın 27-də Bildih (Bakı yaxınlığında — indiki Bilgəh kəndi) limanına çatdı. Burada ingilis tacirləri Şirvanı işğal etmiş Osman paşanın nümayəndələri tərəfindən qarşılandı. Paşa ilə şəxsən danışıqlar aparmaq məqsədilə faktorlar öz xidmətçilərindən birini — Robert Qoldinqi Bakıya göndərdilər. Bakı şəhərinin rəisi onları yaxşı qarşıladı və paşaya təqdim etmək üçün ona dostcasına yazılmış məktub verdi, eyni zamanda Dərbəndə ingilis tacirlərini müşayiət etmək üçün xüsusi dəstə ayırdı. X. Berrounun verdiyi məlumata əsasən Osman paşa ingilisləri xoş qarşılamış və hətta Ternbula 100 marka dəyərində gözəl at bağışlamışdı. Paşa ilə aparılan danışıqlar zamanı ingilis tacirləri imtiyazlar haqqında fərman verməyi xahiş etdilər. Osman paşa belə bir fərmana razılıq verdi, lakin bildirdi ki, ölkədə qarışıqlıq olduğundan malların Dərbənddən gətirilməsi daha məqsədəuyğundur. Paşanın ingilis tacirlərinə xeyirxah münasibəti ondan irəli gəlirdi ki, əvvəllər Dərbənddə əsas ticarət malı olan xam ipəyin çox hissəsini paşa ucuz qiymətə ələ keçirir, digər tərəfdən isə ölkədən tez-tez vergi şəklində xam ipək toplayırdı. Bundan sonra şirkətin təmsilçisi Tomas Hedspen gəmini gətirmək üçün Bakıya göndərildi. Gəmi Dərbəndə gəldikdən sonra onun yükü boşaldıldı və paşa hər 25 top parçadan gömrük haqqı olaraq 1 top özünə götürdü. Qalan malın bir hissəsi tez satılmaq üçün Bakıya göndərildi. Yerli qayıqla göndərilmiş bu malın qiyməti 1000 f. st. idi və onun satılması şirkətin xidmətçilərindən Uilyam Uinkoll, Robert Qoldinq və Riçard Relfə tapşırılmışdı. Bakıda ticarət o qədər də yaxşı getmirdi. Ona görə də R. Qoldinq Şamaxıda vəziyyəti öyrənməyə təşəbbüs etdi, lakin bu təşəbbüs uğursuzluqla nəticələndi və geri qayıdarkən Qoldinq soyğunçuların hücumuna məruz qaldı.

İngilislərin öz gəmisi çürüdüyündən Həştərxana qayıtmaq üçün əlverişli deyildi və buna görə də bir erməni tacirdən ondan gəmi aldılar. Yola düşməyə hazırlaşarkən tufan nəticəsində həmin gəmi qayaya toxunub parçalandı. Gəmidə olan adamlar və malların bir hissəsi xilas edildi, lakin ticarətdən əldə edilən qızılın saxlandığı qutu suya düşdü. Bundan əlavə, edilən satışdan xeyli mahud da itirildi.

Paşaya verilən mallar əvəzində 1000 batman ipək alınmışdı. Cəmi bu ekspedisiya nəticəsində 48 qab (yük) xam ipək alınmışdı ki, bu da 1495 batman təşkil edirdi. 1580-ci il oktyabrın 3-də Dərbənddən yola düşərkən ekspedisiya başçıları Bakıdakı xidmətçilərini orada saxlamağı nəzərdə tutaraq himayəçilik göstərməyi Osman paşadan xahiş etdilər. Lakin bu vaxt gəminin fəlakətə uğraması xəbəri alındı və onlar Bakıya tərəf yola düşdülər. Nəhayət, fəlakətə uğrayanları da gəmilərinə götürüb oktyabrın 16-da Həştərxana hərəkət etdilər. Buzlaşma və noqayların basqınları ilə əlaqədar olaraq xeyli çətinliklərdən sonra ingilislər dekabrın 4-də Həştərxana çatdılar. Qışı Həştərxanda keçirdikdən sonra 1581-ci il aprelin 9-da ingilis tacirləri öz ölkələrinə yola düşdülər. Qalan malları satmaq üçün A. Rayyal, U. Uinkoll və R. Relf Həştərxanda saxlandılar. Nəhayət, 1581-ci ilin sentyabrında İngiltərə tacirlərinin Rusiya vasitəsilə Azərbaycana altıncı və eyni zamanda XVI əsrdə sonuncu səyahəti başa çatdı.

Ekspedisiyanın nəticələri haqqında rəylər olduqca müxtəlifdir. İngiltərə tarixçisi Skottun fikrincə, axırıncı ekspedisiya şirkət üzvlərinə 106 faiz qazanc gətirmişdi. Lakin Villan Skottun faktları düzgün

başa düşmədiyini və Bernardo de Mendosanın məlumatlarını təhrif etdiyini göstərmişdir. Mendosaya görə, bu ekspedisiya nəticəsində şirkət öz kapitalını bərpa etmiş və əlavə olaraq 6 faiz qazanc götürmüşdür (Scott, 1951).

Azərbaycanla ticarət Moskva şirkəti üçün olduqca mənfəətli idi və sonuncu ekspedisiya ərəfəsində də öz müasirləri arasında bu mövqe geniş yayılmışdı. İngiltərə hakim dairələrinin nümayəndəsi qraf Lester 1574-cü il dekabrın 6-da qraf Şryusberiyə yazırdı: "Cənab, çox təəssüf edirəm ki, mən səyyar tacir deyiləm. Mənim lordum, mən qəti əminəm ki, bu sahədə Dreyk və başqaları tərəfindən edilən səyahətlərdən daha yaxşı səyahət təşkil etmək olar... Sizi inandırıram ki, əgər mənim kisəmdə 10 000 f. st. olsaydı, onu hər qəpiyini bu işə qoyardım."

Ümumiyyətlə, Azərbaycanla ticarətin mənfəətli olduğunu belə bir fakt sübut edir ki, 1581-ci ildən sonra İngiltərə dəfələrlə bu ticarəti yenidən bərpa etməyə təşəbbüs göstərmişdi.

1588-ci ildə kraliça I Yelizaveta tərəfindən Rusiyaya göndərilmiş Cils Fletçerin əsas tələblərindən biri ondan ibarət idi ki, çar IV İvan "İrana" şirkət üzvlərindən və dövlət səfirlərindən başqa heç kimin getməsinə icazə verməsin. 1591-ci ildə şirkətin idarə heyəti Xristofer Holma göstəriş vermişdi ki, gələcək "İran" səyahətləri üçün lazım ola biləcək silahları qaydaya salsın, bu səyahətlər ya sonrakı il bərpa edilməli, ya da "yaxşı zamanlara qədər" təxirə salınmalı idi. 1600, 1602, 1604-cü illərdə Rusiyaya göndərilən səfirliklərin də əsas məqsədlərindən biri "İran" ticarətini bərpa etmək idi. 1613-cü ildə Henri Hevill bu məsələ haqqında Gizli Şura ilə məsləhətləşmiş və xüsusi layihə irəli sürmüşdü. Maraqlıdır ki, hətta 1697-ci ildə, yəni İngiltərə tacirləri Rusiyada öz imtiyazlarını bütünlüklə itirdikdən sonra da İngiltərə Ticarət və Müstəmləkə Komitəsi həmin məsələni müzakirə etmiş və keçmiş zamanın ən mühüm imtiyazlarından biri kimi İranda azad ticarətin bərpa olunmasını arzu etmişdi.

## Nəticə

XVI əsrin ikinci yarısında İngiltərə ilə Səfəvilər dövləti arasında ticarət əlaqələrinin dayandırılmasının müxtəlif səbəbləri vardı. Biz bunlardan ən mühümləri haqqında bəhs edəcəyik.

Osmanlı imperiyası ilə Səfəvilər dövləti arasında baş verən müharibələrdə Azərbaycan əsas döyüş meydanına çevrilmişdi. Onun ərazisi dəfələrlə əldən-ələ keçir və var-yoxdan çıxarılırdı. Xüsusilə, 1578-ci ildə Şamaxı, Bakı və Dərbəndin türklər tərəfindən işğal olunması vəziyyəti daha da ağırlaşdırdı. Moskva şirkətinin nümayəndəsi X. Berrou yazırdı ki, Şamaxı elə dağılmışdı ki, orada heç bir canlı və əmlak qalmamışdır, yollar əslində silahlı quldur dəstələrinin əlindədir və olduqca qorxuludur. Türk işğalı Azərbaycan iqtisadiyyatına ağır zərbə vurmuşdur. Berronun yazdığına görə burada xam ipəkdən başqa heç bir mal almaq mümkün deyildi, ipəyi də yalnız türk paşasından almaq olurdu. Bu da şirkətin qazancını xeyli azaldırdı.

Türkiyə hakimiyyətinin Xəzər dənizi sahillərinə yayılması ingilis tacirlərini əməliyyat bazarlarından məhrum etdi, 1580-ci il ekspedisiyasına mane olurdu və İngiltərə ilə "İran" arasında əlaqələr xəttini kəsdi. Doğrudan da, son ekspedisiyada ingilis tacirləri hər vəclə bu səddi keçə bilmədilər. Villanın yazdığı kimi, "tezliklə İranla Türkiyə arasında başlanan müharibələr... londonluların bu tərifəlayiq işlərini dayandırdı".

1588-ci ildə "Məğlubedilməz Armada"nın ingilis donanması tərəfindən darmadağın edilməsindən sonra İngiltərənin İspaniya kimi ən qüdrətli rəqibi aradan çıxdı, dənizlərdə ağalıq İngiltərənin əlinə keçdi və beləliklə, XVI əsrin sonlarında cənub-şərq və cənub-qərb istiqamətində fəaliyyət göstərmək üçün geniş imkanlar yarandı. Təsadüfi deyil ki, müstəmləkə imperiyasının əsasını qoymuş məşhur Ost-Hind şirkəti XVII əsrin başlanğıcında yaranmışdı. Ona görə də İngiltərə indi Hindistanla ticarətə daha çox fikir verirdi.

Moskva şirkətinin hüquq və imtiyazları çox vaxt onun üzvləri tərəfindən pozulurdu. Fərdi ticarətçilər, xüsusən, Narva ticarətində böyük uğurlar qazanmışdılar. Çox hallarda şirkətə daxil olmayan İngiltərə tacirləri gizli olaraq Rusiya və Azərbaycanda ticarətlə məşğul olurdular. Bu rəqabətin qarşısını almaq məqsədilə şirkət dəfələrlə Gizli Şuraya müraciət etmişdi. 1563-cü il ekspedisiyasının iştirakçısı P. Çininin məlumatına görə o, Şamaxıdan qayıtdıqdan sonra pulları Moskvadakı baş agent T. Qloverə təhvil verərkən məlum olmuşdur ki, satılan malların xeyli hissəsi

şirkətin deyil, ayrı-ayrı şəxslərindir, həm də bu malların bütün daşınma və satılma xərcləri şirkətin üzərinə düşmüşdü.

İki ölkə arasındakı ticarət əlaqələrinin kəsilməsindən danışarkən burada şimal-şərq və Volqa–Xəzər ticarət yolunun çətinliklərini nəzərdə tutmaq lazımdır. İngiltərə ilə Azərbaycan arasında ticarət yolu olduqca uzun və təhlükəli idi. Demək olar ki, hər il gəmilərin fəlakətə uğraması halları baş verirdi. Volqa–Xəzər su yolunda isə ingilis tacirləri tez-tez basqınlara məruz qalırdılar. Səfəvilər dövləti daxilində də ticarətlə məşğul olmaq xeyli təhlükəli idi. Bəzən şahın ingilis tacirlərinə verdiyi imtiyazlar yerlərdə pozulurdu.

Nəhayət, bu münasibətlərin kəsilməsinin ən əsas səbəbi mərkəzləşmiş Rus dövlətinin İngiltərənin Şərqə irəliləməsinə qarşı yeritdiyi siyasət idi. İngiltərə ilə Rusiya arasında şimal-qərb vasitəsilə ticarət münasibətləri yarandığı ilkin zamanlarda Rus dövləti bu yolla Avropa ölkələri ilə müntəzəm əlaqə saxlaya bilərdi. Digər tərəfdən isə Baltik sahili uğrunda mübarizədə Rusiya özünə müttəfiq axtarırdı.

## Ədəbiyyat


1. Akhmedov, B. A. (1966). Tet'ya Tet'ya Zespedisiya angligan v gosudarstvo Sefevidov (1561-1572). *Uchenyye zapiski AGU*, №8.
2. Akhmedov, B. A. (1967a). Zkspedisiya 1579-1581 gg i prichin prekrasheniya torgovykh snosheniy mepsud Angliyey i Azerbaydzhanom. *Uchenyye zapiski AGU*, №3.
3. Akhmedov, B. A. (1967b). Iz istorii torgovykh snoshenii Anglii s gosudarstvom Sefevidov (i pol – XVI veka) [Avtoreferat kandidatskoy dissertatsii].
4. Ashurbeyli, S. B. (1983). *Gosudarstvo Shirvanshakhov*.
5. Ashurbeyli, S. B. (1992). *Istoriya goroda Baku*.
6. Azerbaydzhan tarikhi. (1996). S. S. Yeliyar (Red.).
7. Azerbaydzhan tarikht. 7-childde. III ch. (2000).
8. Azerbaydzhan tarizht uzre gaynaglar. (1989). S. S. Yeliyarly, F. R. Makhmulov (Tərt.).
9. Cherkashino, N. P. (1953). Istoriya Moskovskoy Torgovokh kompanu v XVI-XVII vv. M.
10. Christopher, H. (2000). *The Cambridge historical encyclopedia of Great Britain and Ireland*. Cambridge.
11. Gasanzade, D. G. (1991). Anglo-Sefevidske atnosheniya v kopyye XVI-nachale XVII vv.
12. Gerson, A. J. (1912). *The organization and early history of the Moscow Company*.
13. Geyderov, M. Kh. (1982). Goroda i gorodskoye remeslo Azerbaydzhana XVI-XVII vv.
14. Lyubimenko, I. I. (1912a). Istoriya torgovkh snosheniy Rossii s Angliyey. Yur"yev.
15. Lyubimenko, I. I. (n.d.). Angliyskaya Torgovaya kompaniya v Rossii v XVI v. *Istoriyeskoye obozreniye*, t-16.
16. Makhmudov, J. M. (1977). Syayyakhlar Azerbaychana kelir.
17. Makhmudov, Ya.-M. (1991). Vzamiyeetpasheniya gosudarstv Akkoyunlu i Sefevidov s zapadnoyevropayskii gosudarstvaii (polovina XV – nachalo XVII vv).
18. Makhmudov, Zh.-M. (1980). Odlar yurduna seyekheyet.
19. Makhmudov, Zh.-M. (1985). Syayyakhlar, kelirler Azerbaydzhana.
20. Makhmudov, Zh.-M. (1996). Azerbaydzhan diplomatiyasy.
21. Mugalinskiy, R. A. (1997). Azerbaydzhane gosudarstva XVI-XVII vv Angliykoy istoriografii [Avtoreferat kandidatskoy dissertatsii].
22. Onuilakhi, S. M. (1982). XIII-XVII yesrlerde Tebriz shekherinin tarikhi.
23. Pnteshestvenniki ob Azerbaydzhane. (1961). Sost. Z. I. Yampol'skiy.
24. Scott, W. R. (1951). *The constitution and finance of English, Scottish and Irish joint-stock companies to 1720* (Vols. 1–2).
25. Shamkhaliyev, Ə. M. (n.d.). Ob angol–ispanskikh pretivoreuiyakh na Perdna vostokoye v 80-90gg XVI i pervoy chetverki.
26. Shamkhaliyev, E.-M. (1957). Anglo–Veneuianskiye torgoviye protivoreuiya na Perednem Vostokoye vo vtoroy polovine XVI v. *Uchenyye zapiski AGU im S.M. Kirova*, №12.

27. Shamkhaliyev, E.-M. (1958a). Ob anglo–russkikh torgovykh protivoreuiyakh na Perednom Vostoke vtoroy pol. XVI. *Uchenyye Zapiski AGU im. S.M. Kirova*, №15.
28. Shamkhaliyev, E.-M. (1958b). Iz istori torgovy politiki Yevropeyskiye dpsav na Ayerednem Vostoke v XVI v. [Avtoreferat doktorskoy dissertatsii].
29. Tolstoy, T.-Yu. (1876). *Pervyye 40 ket snosheniy Anglii s Rossiyey (1553–1593)*.
30. Tumanovich, N. N. (1982). Yevropeyskiye derpsavy v Persidskom zalive v XVI vv.
31. Vauqhn, E. V. (1912). English trading expeditions into Asia under the authority of the Moscow Company. N–J.
32. Willan, T. S. (1956). *The early history of Russia Company (1553–1603)*.
33. Yefendiyyev, O. A. (1981). Azerbaydzhanspos gosudarstvo Sefevidov.
34. Yefendiyyev, O. A. (1993). Azerbaychan. Sefeviler dovleti.

Daxil oldu: 07.09.2025
Qəbul edildi: 24.12.2025